Azərbaycan İlahiyyat İnstitutu

# Bülleten

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 7
yanvar-iyun
2023



"Heydər Əliyev və dini tolerantlıq" mövzusunda respublika elmi konfransı səh.24-25

## İNSTİTUTUN FƏALİYYƏTƏ BAŞLAMASININ 5 İLİ TAMAM OLDU

səh.6-7





"Gələcəyi günümüzdə qura bilsək" mövzusunda tədbir səh.9

Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər

səh.41



Nümayəndə heyətinin Bruney səfəri səh.39-40



Din xadimləri ilə görüş səh.16



səh.46-47

Məzun Günü



Nümayəndə heyətinin Malayziya səfəri səh.34-35



"Din araşdırmaları" jurnalının rəsmi internet saytının təqdimatı səh.45



Moskvada Azərbaycan Elm və Mədəniyyət Günləri səh.31-33

# Kitab nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazovun “Qafqazda elmihal ənənəsi və ilk elmihal nümunəsi: “Zübdətül-İslam” (transliterasiya və transkripsiya)” adlı kitabı nəşr olunub.

Kitab İslam mədəniyyəti tarixində mədrəsə ənənəsinin Qafqaz nümunəsi kimi, XVII-XIX əsrləri əhatə edir. Əsərdə Qafqazın hazırda bizə məlum olan ilk elmihal kitabının transliterasiyası və transkripsiyası oxuculara təqdim olunur. Sözügedən nümunə İslam dininin əqidə ilə bağlı mövzuları, təharət, dəstəmaz, namaz, oruc, zəkat, həcc, qurban və digər ibadətlər haqqında məlumatları ehtiva etməklə yanaşı, Azərbaycanın ənənəvi dini mühiti barəsində də müxtəlif bilgiləri əhatə edir. Kitabda mənəvi dəyərlərimizin tarixi resursları və mədəni irsimizin inkişaf tarixi də öz əksini tapmışdır. Nümunə ilahiyyat təhsili alan tələbələr, eləcə də geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. “İlahiyyat nəşrləri” adı altında layihəyə müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının müxtəlif dillərdən tərcümə olunan əsərlərinin nəşri daxildir. Eyni zamanda, İnstitutun qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri




araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.

# İnstitutda qış imtahan sessiyası

Azərbaycan İlahiyyat İnstitutunda 6 yanvar 2023-cü il tarixində bakalavriat və magistratura səviyyələri üzrə payız semestrinin qış imtahan sessiyası başlayıb.

Bakalavriat səviyyəsində 24 qrup üzrə 50 fəndən, magistratura səviyyəsində isə 6 qrup üzrə 29 fəndən imtahan keçirilib. Dörd həftə davam edən sessiya təsdiq olunmuş imtahan cədvəlinə uyğun surətdə iki növbədə keçirilib. İmtahanlar əyani formada, yazılı,





zəruri hallarda isə şifahi formada baş tutub.

İmtahan sessiyası mövcud qaydalara uyğun təşkil edilib, tələbələrin biliklərinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması üçün ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb.

Məlumat üçün bildiririk ki, İnstitutun 2022-2023-cü tədris ili qış imtahan sessiyası yazılı və şifahi olaraq, imtahanlar arasında müddət isə iki gün intervalı ilə keçirilib.

# "Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda tədbir

Azərbaycan İlahiyyat İnstitutu ilə Yeni Azərbaycan Partiyasının Yasamal Rayon Təşkilatı birlikdə 10 yanvar 2023-cü il tarixində ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Heydər Əliyev və multikultural dəyərlər" mövzusunda tədbir keçirib.

Aİİ rektoru Aqil Şirinov bildirib ki, "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamına uyğun olaraq, müəssisədə Yeni Azərbaycan Partiyası Yasamal rayonu üzrə ərazi partiya təşkilatı olaraq, Ulu Öndərin 100 illiyi münasibətilə tədbir keçirilib.

Ölkəmizdə mövcud multikultural mühit haqqında geniş məlumat verən A.Şirinov vurğulayıb ki, Azərbaycanda dövlət-din münasibətlərinin sağlam əsaslar üzərində qurulması məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. O qeyd edib ki, Ulu Öndər bir çox sahədə olduğu kimi, milli-mənəvi və multikultural dəyərlərin qorunması və gənc nəslə ötürülməsi istiqamətində də uzaqgörən addımlar atıb. Rektor xatırladıb ki, 1994-cü ildə Bibiheybət məscid-kompleksinin bərpa olunması üçün verilən qərar ulu öndər Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə göstərdiyi dərin hörmətin bariz nümunəsidir.

Məruzəçi daha sonra 1998-ci ildə Ümummilli Liderin təşəbbüsü ilə "İslam sivilizasiyası Qafqazda" mövzusunda təşkil olunan beynəlxalq simpoziumda Ulu Öndərin nitqinə diqqət çəkib. A.Şirinov Heydər Əliyevin burada qeyd etdiyi fikirləri ilə nitqini yekunlaşdırıb: "Biz azərbaycanlılar İslam dini ilə fəxr edərək, eyni zamanda, heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmişik, düşmənçilik etməmişik, ədavət aparmamışıq və heç bir başqa xalqı da öz dinimizə itaət etməyə məcbur etməmişik. Ümumiyyətlə, başqa dinlərə dözümlülük, başqa dinlərlə yanaşı və qarşılıqlı anlaşma şəraitində yaşamaq İslam dəyərlərinin xüsusiyyətidir".

Yeni Azərbaycan Partiyası Yasamal Rayon Təşkilatının sədri Bəxtiyar Nəbiyev tədbir iştirakçılarını salamlayaraq, ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə ilk tədbirin məhz Azərbaycan İlahiyyat İnstitutunda keçirilməsindən məmnun olduğunu diqqətə çatdırıb. Bildirib ki, tarixi İpək Yolu üzərində yerləşən, Şərqlə-Qərb arasında körpü rolunu oynayan Azərbaycan müxtəlif millətlərin, mədəniyyətlərin və dinlərin ardıcıllarının sülh, əmin-amanlıq və qarşılıqlı anlaşma şəraitində yaşadığı məkan olub. B.Nəbiyev qeyd edib ki, bu nümunəvi xüsusiyyət Azərbaycanın müstəqillik illərində daha da möhkəmlənib, fərqli mədəniyyətlərin, müxtəlif dinlərin nümayəndələrinə hörmətlə yanaşmaq ənənəsi məhz ümummilli lider Heydər Əliyevin müdrik siyasəti sayəsində prioritet istiqamətlərdən birinə çevrilib. Ulu öndər Heydər Əliyevin həyata keçirdiyi bu siyasətin hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdıran B.Nəbiyev bildirib ki, hazırda Azərbaycan mənəvi sərvətimiz olan multikultural və tolerant dəyərlərin dünyada ən böyük ixracatçısına çevrilib.









"91-lər"dən biri olan Şahlar Əsgərov ümummilli lider Heydər Əliyevin ideyaları, uzaqgörənliyi və qətiyyəti sayəsində yaradılan YAP-ın zəngin və şərəfli inkişaf yolu keçdiyini deyib. YAP-ın Veteranlar Şurasının sədri olan Ş,Əsgərov qeyd edib ki, Azərbaycanın ən güclü və mütəşəkkil siyasi qüvvəsi olan Yeni Azərbaycan Partiyasının möhtəşəmliyinin bariz təzahürü onun milli maraqlarımızın ifadəçisi olmasıdır.

Şahlar Əsgərov, həmçinin Ulu Öndərdən sitatlar gətirərək, gənclərə ictimai mənafeyi fərdi mənafedən üstün tutmağı tövsiyə edib.

# Qış imtahan sessiyası





Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvləri 17 yanvar 2023-cü il tarixində payız semestri qış imtahan sessiyasının gedişatını izləyiblər.

İctimai Nəzarət Şurasının üzvləri imtahan keçirilən auditoriyalarda olub, ayrı-ayrı fənlər üzrə qış imtahan sessiyasını müşahidə ediblər. Şura üzvləri tələbələrin sessiyaya hazırlıqları, sualların tərtibatı, imtahan prosesi barədə fikirlərini bölüşüblər.

Bildirilib ki, 2022-2023-cü tədris ili payız semestrinin qış sessiyasında imtahanların müvafiq təlimatlara və əsasnamələrə uyğun keçirilməsini təmin etmək, yarana biləcək mənfi halları dərhal araşdırmaq və müvafiq tədbirlər görmək, habelə sessiyanın şəffaf, normativ sənədlərə uyğun təşkili üçün Operativ Qərargah yaradılıb. Eyni zamanda, imtahanların bir qayda olaraq yazılı, zərurət yarandığı hallarda isə şifahi formada keçirildiyi barədə Nəzarət Şurasının üzvləri məlumatlandırılıblar. Qeyd olunub ki, imtahan sessiyasının mövcud qaydalara uyğun təşkili məqsədilə İnstitut rəhbərliyi tərəfindən xüsusi komissiya yaradılıb, imtahanlara nəzarət müəllim-koordinatorlar tərəfindən həyata keçirilib. İmtahanlar arasında iki gündən az olmayan müddət təyin edilib, imtahana vaxt isə iki saat ayrılıb.

İctimai Nəzarət Şurasının əsas məqsədi Aİİ-nin fəaliyyətinə ictimai nəzarətin həyata keçirilməsi, İnstitut ilə ictimaiyyət arasında səmərəli qarşılıqlı əlaqələrin təşkili, aşkarlığın və şəffaflığın təmin olunması, əməkdaşların və təhsil alanların hüquqlarının müdafiəsi və fəaliyyətlərinin təkmilləşdirilməsi üçün təkliflərin verilməsindən ibarətdir.

# Ümumxalq Hüzn Günü tədbiri

Azərbaycan İlahiyyat İnstitutunda 20 Yanvar – Ümumxalq Hüzn Gününə həsr olunmuş tədbir keçirilib. Bu faciə zamanı qətlə yetirilmiş insanların əziz xatirələri bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib.

Aİİ rektoru, dosent Aqil Şirinov mərasimdə açılış nitqi ilə çıxış edərək, Vətənimizin azadlığı, bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərin ruhlarına rəhmət, qazilərə Allahdan səbir diləyib.

Azadlıq mübarizəmizin ən bariz nümunəsi olan həmin gecə yaşananlar barədə ətraflı danışan rektor faciəli günlərdə Azərbaycan xalqının haqq səsini Moskvadan bütün dünyaya çatdıran ümummilli lider Heydər Əliyevin xüsusi xidmətlərini vurğulayıb. Bildirib ki, 20 Yanvar hadisələri zamanı olduğu kimi, 44 günlük Vətən müharibəsində də xalqımızın birlik ruhunun, bir yumruq kimi birləşməsinin şahidi olduq.

Daha sonra AMEA Tarix İnstitutunun icraçı direktoru, tarix üzrə fəlsəfə doktoru, dosent İlqar Niftəliyev tarixi faktlara əsaslanaraq, 20 Yanvar faciəsinədək və ondansonrakı hadisələr barədə bəhs edib. İ.Niftəliyev nitqində dövrün tarixi həqiqətlərini – 20 Yanvarın nə vaxt və haradan başlandığını göstərən hadisələrin xronoloji ardıcıllığını sadalayıb, tarixi faktlara əsaslanan şərhlərini bildirib.

20 Yanvar hadisələrinə siyasi qiymətin ilk dəfə ulu öndər Heydər Əliyev tərəfindən verildiyini vurğulayan İ.Niftəliyev daha sonra bildirib ki, Ümummilli Lider dövrün mürəkkəbliyinə və görüləsi işlərinin çoxluğuna baxmayaraq, tariximizin şanlı və qanlı səhifəsi sayılan 20 Yanvar faciəsinin başvermə səbəbləri və günahkarların araşdırılması ilə bağlı mühüm addımlar atıb.

# İlahiyyat İnstitutunda qış imtahan sessiyası başa çatıb

Azərbaycan İlahiyyat İnstitutunda 30 yanvar 2023-cü il tarixində 2022/2023-cü tədris ilinin bakalavriat və magistratura səviyyələri üzrə payız semestrinin qış imtahan sessiyası sona çatıb. Dörd həftə davam edən sessiya təsdiq edilmiş imtahan cədvəlinə uyğun olaraq, əyani formada yazılı, ehtiyac olduğu təqdirdə, şifahi formada keçirilib.

İmtahan sessiyasının mövcud qaydalara uyğun təşkil edilməsi, sualların tərtibi, tələbələrin biliyinin qiymətləndirilməsində şəffaflığın və obyektivliyin tam təmin olunması, imtahanların nəticəsindən yarana biləcək narazılıqların araşdırılması və həll edilməsi məqsədilə ali təhsil müəssisəsində Qərargah və onun nəzdində Apellyasiya Komissiyası yaradılıb. Qərargah mövcud şəraitə uyğun olaraq fəaliyyət göstərib. Daxil olan müraciətlər, şikayətlər qısa müddətdə çevik şəkildə araşdırılıb, lazımi tədbirlər görülüb.

İmtahan sessiyasının gedişatı İlahiyyat fakültəsinin dekanlığı, Tədris şöbəsi və aidiyyəti kafedralar tərəfindən izlənilib.



Qeyd edək ki, imtahan sessiyası müddətində əldə etdikləri nəticələrə (ÜOMG-yə) əsasən təhsilalanlara tələbə təqaüdü ilə yanaşı, AİI-də təsis olunmuş Heydər Əliyev adına, QMİ-nin təsis etdiyi Şeyxülislam adına və akademik Vasim Məmmədəliyev adına təqaüdlər verilib.

# İnstitut yardım kampaniyasına qoşulub



Azərbaycan İlahiyyat İnstitutu Türkiyədə baş verən zəlzələdə zərərçəkənlərə kömək məqsədilə yardım kampaniyasına qoşulub.

İnstitut əməkdaşlarının topladıqları humanitar yardımlar 8 fevral 2023-cü il tarixində Bakı şəhəri, Tbilisi prospektində yerləşən Heydər Əliyev adına İdman Konsert Kompleksində yardımtoplama məntəqəsinə çatdırılıb.

Qeyd edək ki, AİI rəhbərliyi başda olmaqla, müəssisənin bir qrup əməkdaşı "Ziraat Bank"da təbii fəlakətlə bağlı Türkiyənin Daxili İşlər Nazirliyi Təbii Fəlakət və Fövqəladə Hallar Agentliyinin (AFAD) bank hesabına pul vəsaiti köçürüb.

AİI kollektivi qardaş Türkiyə xalqının üzləşdiyi faciə zamanı həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verib, yaralılara şəfa diləyib.

# "Din sosiologiyası" dərsliyi nəşr olunub

Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsinin dekan müavini, sosiologiya üzrə fəlsəfə doktoru, dosent Asəf Qənbərovun "Din sosiologiyası" kitabı nəşr olunub.

Dərslikdə din sosiologiyasının müstəqil elm kimi təşəkkül tarixi, predmeti və metodologiyası, habelə dinin sosioloji nəzəriyyəsinin aktual problemlərindən bəhs edilir. Eyni zamanda, dərslikdə ictimai bir institut kimi din-cəmiyyət münasibətləri, dinin mahiyyəti və funksiyaları, din və modernizasiya prosesi, müasir cəmiyyətdə dinin yeri, sekulyarizasiya problemi və digər amillərlə bağlı konseptual yanaşmalar haqqında ətraflı məlumat verilir.

Dərslik elmi tədqiqatçılar, sosioloqlar, dinşünaslar, ali məktəb müəllimləri, tələbələr, habelə geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. "İlahiyyat nəşrləri" adı altında layihəyə müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının müxtəlif dillərdən tərcümə olunan əsərlərinin nəşri daxildir. Eyni zamanda, İnstitutun qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.



# İnstitutun fəaliyyətə başlamasının 5 ili tamam oldu




Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının beşilliyi münasibətilə müəssisədə 9 fevral 2023-cü il tarixində tədbir keçirilib.

Öncə ölkəmizin ərazi bütövlüyü uğrunda şəhid olanların və qardaş Türkiyə Respublikasında zəlzələ nəticəsində dünyasını dəyişənlərin ruhları birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Daha sonra AİI-nin tələbəsi Yusif Nəcəfovun təqdimatında Quran tilavəti təqdim olunub.

Açılış nitqi ilə çıxış edən AİI rektoru, dosent Aqil Şirinov öncə qardaş Türkiyədə baş verən zəlzələ nəticəsində həyatını itirənlərə Allahdan rəhmət, yaralılara şəfa diləyib.

A.Şirinov bildirib ki, Sərəncamda da qeyd edildiyi kimi, xalqımızın tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan milli-mənəvi dəyərlərin qorunub-saxlanılması üçün çalışacaq, dini ədavət və düşmənçilik meyillərinin qarşısını alacaq yüksəkixtisaslı dinşünas və islamşünas kadrların hazırlanması Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının əsas mahiyyətini ehtiva edir.

İnstitut rektoru diqqətə çatdırıb ki, ali təhsil müəssisəsinin yarandıqdan sonra apardığı tədris, təşkil etdiyi respublikadaxili və beynəlxalq elmi konfranslar, simpoziumlar, forumlar, eləcə də akademik heyətin din sahəsinə töhfə verən elmi araşdırmaları, xalqın dini baxımdan düzgün istiqamətdə maarifləndirilməsi prosesində yaxından iştirak etməsi İnstitutun Azərbaycan ictimaiyyətinin etimadını qazanmasına səbəb olub: “İlahiyyat




sahəsindəki problemləri araşdıran, təhlil edən, elmi tədqiqatlar aparan və bu nümunələri çap etməyi əsas məqsədlərdən biri hesab edən Azərbaycan İlahiyyat İnstitutu keyfiyyətli nəşrləri ilə yerli və xarici elmi ictimaiyyətin daim diqqət mərkəzində olmağa çalışır.

Tədris proqramlarını beynəlxalq standartlara uyğun quran, şəffaf və keyfiyyətli tədris həyata keçirən Azərbaycan İlahiyyat İnstitutu beynəlxalq əlaqələrin genişlənməsini daim diqqət mərkəzində saxlayır. Bunun nəticəsidir ki, İnstitut





dünyanın 25-dən çox aparıcı ali təhsil müəssisəsi ilə imzaladığı protokollara uyğun olaraq, həmin ali təhsil ocaqları ilə tələbə mübadiləsi həyata keçirir".

Azərbaycan İlahiyyat İnstitutunun uğurunun bütün kollektivin uğuru olduğunu bildirən A.Şirinov kollektivin hər bir üzvünü ali təhsil müəssisəsinin beşilliyi münasibətilə təbrik edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Müba-



riz Qurbanlı bildirib ki, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, Konstitutsiyada dövlət-din modeli müəyyən olunub. Respublikamız çoxmədəniyyətli, çoxkonfessiyalı, eyni zamanda, İslam dəyərlərinin daşıyıcısı olan vətəndaşlarının say çoxluğu olan ölkələr sırasındadır. Ona görə də strateji baxımdan Azərbaycanda din sahəsində əsas vəzifə tolerant, multikultural və islami dəyərlərimizə uyğun vəhdəti həyata keçirən nümunəvi siyasət formalaşdırılıb. Ulu Öndərin əsasını qoyduğu dövlət-din münasibətləri modeli bu gün Prezidentimiz cənab İlham Əliyev tərəfindən zamanın tələblərinə uyğun olaraq daha da gücləndirilib və elə bir səviyyəyə çatdırılıb ki, artıq bu model dünyada nümunə kimi qəbul olunur. Dövlət Komitəsinin sədri vurğulayıb ki, artıq İlahiyyat İnstitutunun hazırladığı yüksəkixtisaslı kadrlar ölkəmizdəki yüksək dini-mənəvi mühitin, dinlərarası harmoniyanın qorunub-saxlanılması prosesində iştirak edirlər. İlk tələbə buraxılışını həyata keçirən Azərbaycan İlahiyyat İnstitutunun məzunları rəsmi din xadimləri kimi fəaliyyət göstərirlər.

Mübariz Qurbanlı diqqətə çatdı-



rıb ki, dini siyasiləşdirmək, dindən sui-istifadənin, eləcə də ölkəmizdəki ictimai sabitliyi, mənəvi birliyi pozmaq üçün edilən cəhdlərin qarşısını almaq bu sahədə çalışan kadrların ən ümdə vəzifələrindən biridir. Əlavə edib ki, xalqımızın milli-mənəvi dəyəri olan İslam dini əsrlərboyu nəsillərdən-nəsillərə ötürələrək bu günə gəlib çatmışdır. Din pərdəsi adı altında bu dəyərlərə yad ideologiyaların təbliğinin qarşısının alınmasında, maarifləndirmə işinin effektivliyinin artırılmasında bütün səylərimizi birləşdirməliyik.

DQİDK sədri çıxışının sonunda Azərbaycan İlahiyyat İnstitutunun kollektivi və tələbələrini təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, ali təhsil müəssisəsinə hədiyyə təqdim edib.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin baş məsləhətçisi Əliheydər



Zülfüqarov, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli, AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun baş direktoru Gövhər Baxşəliyeva, millət vəkili Ceyhun Məmmədov, Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvləri



adından professor Şahlar Əsgərov, dini konfessiya nümayəndələri adından Bakı Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxış edərək, Azərbaycan İlahiyyat İnstitutunun beşilliyi münasibətilə kollektivi təbrik edib, gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutunun beşillik fəaliyyətinə həsr olunmuş film nümayiş olunub.

# "Qəhrəmanlar unudulmur" mövzusunda tədbir təşkil olunub



"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin təşkilatçılığı və Azərbaycan İlahiyyat İnstitunun tərəfdaşlığı ilə 23 fevral 2023-cü il tarixində Vətən müharibəsi şəhidi, polkovnik-leytenant Mehman Şirvanovun xatirəsinə həsr olunan "Qəhrəmanlar unudulmur" adlı tədbir təşkil olunub.

Tədbirdə İctimai TV-nin şəhid polkovik-leytenant Mehman Şirvanova həsr olunan "Murovun Mehmanı" filminin və yazıçı Pərvanə Mehmanqızının qələmə aldığı şəhidimizin həyat yolundan bəhs edən "Ölməz Qəhrəman" adlı kitabın təqdimatı keçirilib.

Tədbirdə millət vəkilləri, QHT sədrləri, KİV nümayəndələri, şəhid ailələri, qazilər, İnstitutun tələbə və müəllim heyəti iştirak edib.

Tədbir iştirakçılarını salamlayan Azərbaycan İlahiyyat İnstitutunun rektoru, ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Aqil Şirinov tələbələr arasında milli ideyaların, dövlətçilik ənənələrinin, qəhrəman şəhidlərimizin təbliği istiqamətində təhsil ocağında görülən işlər barədə məlumat verib.

"Zəfər" Şəhid Ailələrinə Dəstək İctimai Birliyinin sədri Sevinc Alızadə çıxışında qeyd edib ki, şəhidlərin xatirəsinin əbədiləşdirilməsi yönündə bu kimi görüşlərin ali təhsil müəssisələrində təşkil olunmasının əsas səbəbi şəhidlərin keçdiyi döyüş yolunu və qəhrəmanlıq salnaməsini gənclərə çatdırmaqdır.

Millət vəkili Ceyhun Məmmədov şəhidlərin döyüş yolunun öyrənilməsi istiqamətində bu cür vətənpərvərliyi aşılayan sənədli filmlərin tanıdılmasının vacibliyini vurğulayıb.

Kitabın müəllifi yazıçı Pərvanə Mehmanqızı şəhid qəhrəmanın döyüş yolunun gənc nəslimizin böyüməsində, hərbi tərbiyəsində böyük rolundan danışıb.

Tədbir filmin nümayişi ilə davam edib.

Tədbirin sonunda qəhrəmanımızın həyat yolundan bəhs edən "Ölməz qəhrəman" kitabı tələbələrə hədiyyə edilib.

# Xocalı soyqırımına həsr olunmuş anım tədbiri



Azərbaycan İlahiyyat İnstitutunda Xocalı soyqırımının 31-ci ildönümü ilə əlaqədar 24 fevral 2023-cü il tarixində anım tədbiri təşkil olunub.

Tədbirdə AİI-nin müəllim və tələbə heyəti, o cümlədən əməkdaşlar iştirak ediblər.

Əvvəlcə dövlətimizin ərazi bütövlüyü uğrunda şəhid olanların və Xocalı soyqırımı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Ali təhsil müəssisəsinin rektoru, dosent Aqil Şirinov çıxış edərək, bu qətliamın dünyada görünməyən ən dəhşətli soyqırımlarından biri olduğunu, məhz tarixin bu günlərində Xocalı sakinlərinin xüsusi amansızlıqla qətlə yetirildiklərini diqqətə çatdırıb. O qeyd edib ki, Xocalıda baş vermiş qətliam məhz bilərəkdən və düşünülmüş şəkildə həyata keçirilib. Bildirib ki, Xocalı soyqırımına dünya səviyyəsində hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar.

AİI rektoru vurğulayıb ki, başımıza gətirilən belə faciələri unutmamalı, gənclərimizə daim soyqırımı həqiqətlərini aşılamalıyıq.

A.Şirinov daha sonra bildirib ki, xalqımız 44 günlük Vətən müharibəsi zamanı işğal altında olan torpaqlarını azad edərək, erməni faşistlərinə layiqli cavabını verib. AİI rektoru vurğulayıb ki, Laçını, Kəlbəcəri, Ağdamı, Xocalını görməyən gənclərimiz vətənimizin bütövlüyü, torpaqlarımızın düşmən tapdağından azadlığı uğrunda canlarını fəda etdilər.

Azərbaycan Televiziyası İctimai siyasi proqramlar studiyası Tarix şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Mahir Qəribov Xocalı soyqırımında yüzlərlə günahsız insanın ermənilər tərəfindən xüsusi amansızlıqla qətlə yetirildiyini xatırladıb. O, tarixboyu ermənilərin türk-müsəlman əhalisinə qarşı düşmən münasibətində olduqlarını diqqətə çatdırıb.

Daha sonra Azərbaycan Televiziyasının "Tarixin izi ilə" layihəsi çərçivəsində hazırlanmış Xocalı soyqırımına həsr olunan film nümayiş etdirilib.

# "Gələcəyi günümüzdə qura bilsək" mövzusunda tədbir





Azərbaycan İlahiyyat İnstitutunda 28 fevral 2023-cü il tarixində Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı ilə görüş keçirilib.

"Gələcəyi günümüzdə qura bilsək" mövzusunda təşkil olunan tədbirdə giriş nitqi ilə çıxış edən rektor, dosent Aqil Şirinov professor Hamlet İsaxanlının yaradıcılığı barədə fikirlərini bölüşüb, professora gələcək fəaliyyətində uğurlar arzulayıb.

Daha sonra çıxış edən Xəzər Universitetinin təsisçisi, professor Hamlet İsaxanlı görüşün təşkilinə görə İnstitut rəhbərliyinə təşəkkürünü bildirib. Gənclərə tövsiyələrini çatdırdıqdan sonra H.İsaxanlı qələmə aldığı şeirlərindən bir neçəsini səsləndirib.



Görüşdə millət vəkili Ceyhun Məmmədov, Aİİ İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova professor Hamlet İsaxanlı ilə bağlı xatirələrini bölüşüblər.

Tədbirdə Hamlet İsaxanlının həyat və yaradıcılığından bəhs edən qısametrajlı film nümayiş etdirilib, tələbələrin ifasında onun şeirləri səsləndirilib.

Sonda Aİİ rektoru Aqil Şirinov qonağa yubileyi münasibətilə İnstitut adından hədiyyə təqdim edib.

Tədbirdə Aİİ-nin müəllim və tələbələri, əməkdaşları, həmçinin Xəzər Universitetinin rektoru, dosent İradə Xəlilova, Dillər və ədəbiyyatlar kafedrasının müdiri, dosent Dilbər Zeynalova, İctimaiyyətlə əlaqələr və media şöbəsinin direktoru Əlövsət Əmirbəyli və ali təhsil müəssisəsinin digər əməkdaşları iştirak ediblər.

# "Din araşdırmaları" jurnalının növbəti sayı çapdan çıxıb

Azərbaycan İlahiyyat İnstitutunun elmi fəaliyyətinin əsas göstəricilərindən biri olan "Din araşdırmaları" jurnalının IX sayı dərc edilib.

Jurnalın məqsədi ölkəmizdə və dünyada din sahəsində tədqiqat aparan alimlərin məqalələrini elmi ictimaiyyətə təqdim etməkdən ibarətdir. İldə iki dəfə dərc olunan jurnalın yeni sayında 9 məqalə yer alıb. Din psixologiyası, təfsir, fəlsəfə, İslam hüququ, tarix və multikulturalizmə dair qələmə alınmış elmi məqalələr öz sahəsinin peşəkar və nüfuzlu tədqiqatçıları tərəfindən təqdim edilmişdir. Jurnalda Azərbaycan, türk və ingilis dillərində məqalələr dərc olunmuşdur. Dərginin redaksiya heyətinin üzvləri Azərbaycanla yanaşı, Türkiyə, Rusiya, Pakistan, Qazaxıstan və İsveçrənin ali təhsil müəssisələrində çalışan tanınmış alimlərdir.

Qeyd edək ki, jurnalın nəşr qaydaları Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının (AAK) elmi jurnallar qarşısında qoyduğu tələblərə, həmçinin bu sahədəki beynəlxalq standartlara uyğun olaraq hazırlanıb.

Azərbaycan İlahiyyat İnstitutu ali dini təhsil üzrə ixtisaslaşmış müəssisədir. İnstitut din sahəsi də daxil olmaqla ictimai elmlərin müxtəlif istiqamətlərində monoqrafiya, dərslik, dərs vəsaiti, proqram və məqalələrin nəşrinə üstünlük verir.

Akademik nəşrlər ali təhsil müəssisələrinin elmi fəaliyyətinin əsas göstəricilərindən biridir. Gələcəkdə "Din araşdırmaları" jurnalının tanınmış beynəlxalq indekslərə daxil edilməsi nəzərdə tutulur.




"Din araşdırmaları" jurnalı 2020-ci ildən AAK tərəfindən fəlsəfə və psixologiya üzrə elmi məqalələrin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına daxil edilib.

# Tələbələrlə görüş



Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 6 mart 2023-cü il tarixində IV kurs tələbələri ilə görüşüb.

Aİİ rektoru məscidlərdə təcrübə keçən tələbələrə uğurlar arzulayıb, onlara tövsiyələrini bildirib. Qeyd edib ki, gələcəkdə məscidlərdə imam kimi fəaliyyət göstərəcək məzunlarımız dövlətimizin suverenliyi, xalqımızın dini maariflənməsi istiqamətində səylə çalışmalıdırlar. Bildirib ki, ali təhsil müəssisəsinin məqsədi sizin timsalınızda cəmiyyətə savadlı, yüksək intellektə, geniş dünyagörüşünə malik, sağlamdüşüncəli, Vətənini sevən, milli məfkurəyə sahib, milli-mənəvi dəyərlərimizi qoruyan din xadimləri və dinşünas mütəxəssislər təqdim etməkdir.

Ali təhsil müəssisəsinin rəhbəri tələbələrə İnstitutda təşkil edilən ödənişsiz İslam əqaidi üzrə ərəbcə klassik dini mətnləri oxuma, fiqh, ərəb və ingilis dilləri üzrə kurslarda fəal iştirak etməyə səsləyib.

İnstitutun dövlətin diqqət və qayğısı ilə tam əhatə olunduğunu diqqətə çatdıran rektor vurğulayıb ki, tələbələrimiz bu imkanlardan istifadə etməli, biliklərini təkmilləşdirərək, yüksəkixtisaslı kadrlar kimi yetişməlidirlər.

Daha sonra tələbələri maraqlandıran suallar ətrafında fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, Aİİ tələbələri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində və məscidlərdə təcrübə keçirlər.



# “Nur-Mübarək” Universitetində təhsillərini davam etdirəcəklər

Azərbaycan İlahiyyat İnstitutunun tələbələri Qazaxıstan Respublikasının Almatı şəhərində fəaliyyət göstərən “Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universitetində təhsillərini davam etdirəcəklər.

“Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universiteti ilə Azərbaycan İlahiyyat İnstitutu arasında imzalanmış əməkdaşlıq müqaviləsi əsasında tələbə mübadiləsi həyata keçirilir. Tələbələr 2022/2023-cü tədris ilinin yaz semestri ərzində adıçəkilən universitetdə təhsillərini davam etdirəcəklər.

Mübadilə çərçivəsində Aİİ “İslamşünaslıq” ixtisasının III kurs tələbələri – Bəhruz Orucov və Peyman Xəlilov “Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universitetində bir semestr ərzində təhsil alacaqlar.



“Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universitetinin rektoru Məhəmməd əl-Şahhat əl-Gindi, prorektoru Kayrat Kurmanbayev ilə Aİİ-nin xarici əlaqələr üzrə mütəxəssisi Şəms Bağırova və adları qeyd olunan tələbələrin iştirakı ilə 1 mart 2023-cü il tarixində bu səpkidə görüş təşkil olunub. Görüşdə hər iki ali təhsil müəssisəsi arasında əməkdaşlıq əlaqələrinin mövcud vəziyyətindən məmnunluq ifadə olunub. Bu əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

Qeyd edək ki, “Nur-Mübarək” Misir İslam Mədəniyyəti Universitetinin iki tələbəsi 2021/2022-ci tədris ilinin yaz semestri ərzində Azərbaycan İlahiyyat İnstitutunda təhsil alıb.

# "Dini maarifləndirmədə qadının rolu" mövzusunda tədbir



Azərbaycan İlahiyyat İnstitutunda 7 mart 2023-cü il tarixində "Dini maarifləndirmədə qadının rolu" mövzusunda tədbir keçirilib.

Açılış nitqi ilə çıxış edən Aİİ rektoru, dosent Aqil Şirinov bütün dövrlərdə qadına verilən dəyərdən, görkəmli qadın alimlərimizdən, xanım yazıçılarımızdan bəhs edib.

Aİİ rektoru daha sonra Azərbaycanda qadın hüquqlarının qorunması, təbliğ olunması, dövlət siyasətinin həyata keçirilməsində və qanunların qəbul edilməsində onların iştirakının artırılmasının dövlət siyasətinin ayrılmaz tərkib hissəsi olduğunu diqqətə çatdırıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova çıxışında İlahiyyat İnstitutundan məzun olacaq qız tələbələrin dini kimliklə bərabər, milli kimliyə də sahib olan, dövlətin milli maraqlarını düşünən maarifpərvər insanlar kimi cəmiyyətdə öz yerlərini tutacaqlarına və din təhsilinə öz töhfələrini verəcəklərinə əminliyini ifadə edib.

Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazov İslamın qadına verdiyi dəyərdən danışıb, Qurani-Kərimdən və hədislərdən nümunələr gətirib.

İlahiyyatçı və araşdırmaçı yazar Pərvin Nəsirova erkən yaşda evlənməyin fəsadları, təhsilin ailə həyatındakı rolu, qadının peşə sahibi olmasının önəmindən söhbət açıb.

Daha sonra İnstitutun "Dinşünaslıq" ixtisasının III kurs tələbəsi Nərgiz Əliyeva "Heydər Əliyevin qadınlara verdiyi dəyər və Azərbaycan qadını", "İslamşünaslıq" ixtisasının II kurs tələbəsi Əli Rzayev "Şəhid qadınlar", "Dinşünaslıq" ixtisasının IV kurs tələbəsi Aysu Əlizadə "Azərbaycan qadınının milli-mənəvi dəyərlərimizin qorunub-saxlanılmasında rolu" və "İslamşünaslıq" ixtisasının II kurs tələbəsi Məhəmməd Abbasov "İslam və dünyəvi elmlərin inkişafında qadın alimlərin töhfəsi" mövzularında çıxış ediblər.

Sonda qonaqlara təşəkkürnamə və hədiyyələr təqdim edilib.

# Ali təhsil müəssisəsinin fəaliyyəti müzakirə olunub

Azərbaycan İlahiyyat İnstitutunda 10 mart 2023-cü il tarixində qarşıda duran hədəf və məqsədlərlə bağlı ümumi iclas keçirilib.

İclasda fevral ayının yekunları, ali təhsil müəssisəsinin ümumi fəaliyyəti və gələcək perspektivləri müzakirə olunub. Tədbirdə İnstitut rəhbərliyi və əməkdaşları iştirak ediblər.

Aİİ rektoru, dosent Aqil Şirinov tədris prosesi, müəllimlərin fəaliyyəti, kitabların nəşri, elmi məqalələrin çap olunması istiqamətində görülən işlər, həmçinin nəzərdə tutulmuş layihələr haqqında fikirlərini bölüşüb.

Rektor xarici universitetlərlə əlaqələrin qurulması, ikili diplom, Erasmus+, Mövlana proqramları ilə tələbələrin xaricdə təhsil imkanları barədə danışaraq, bu yöndə görülən işlərin peşəkar mütəxəssis hazırlama baxımından məqsədyönlü fəaliyyət olduğunu nəzərə çatdırıb.

Ali təhsil müəssisəsinin rəhbəri yüksəkixtisaslı, peşəkar kadrların hazırlanması məqsədilə İnstitutda təşkil edilən ödənişsiz hazırlıq kurslarının fəaliyyətini yüksək qiymətləndirib.

Aİİ-nin Tədrisin təşkili və təlim texnologiyaları üzrə prorektoru, dosent Mübariz Camalov imtahan sessiyasının nəticələri, qarşıya çıxan problemlər haqqında geniş məlumat verib, sözügedən məsələlərin həlli üçün təkliflərini səsləndirib.



Elm və innovasiyalar üzrə prorektor, dosent Mirniyaz Mürsəlov "İlahiyyat nəşrləri" adı altında ötən dövr ərzində ali təhsil müəssisəsinin müəllim və əməkdaşlarının əməyi sayəsində dərc olunan kitablardan danışıb. M.Mürsəlov "Din araşdırmaları" jurnalının beynəlxalq indeksli nəşrlər sırasına daxil olunması üçün həyata keçirilən təkmilləşdirmə prosesi barədə söhbət açıb. Daha sonra "İlahiyyat TV"nin hazırkı fəaliyyəti, gələcək planları haqqında fikirlərini bildirib.

Aİİ İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova təqaüd alacaq tələbələr haqqında məlumat verib, təkrar imtahanların uğurla başa çatdığını qeyd edib.

İclas qarşıda duran hədəf və məqsədlərin müzakirəsi ilə davam edib.

# «İslam və elm» mövzusunda müzakirə

Azərbaycan İlahiyyat İnstitutunun təşkilatçılığı ilə 15 mart 2023-cü il tarixində "ZOOM" platforması üzərindən vebinar təşkil olunub. Vebinarda Malayziya Beynəlxalq İslam Universiteti (IIUM) Beynəlxalq İslam Təfəkkürü və Sivilizasiyası İnstitutu (ISTAC) əl-Qəzali Epistemologiya, mədəni tədqiqatlar və təcdid kafedrasının müdiri, professor Osman Bakar "İslam və elm" mövzusunda məruzə ilə çıxış edib.

Görüşdə Azərbaycan Respublikasının Malayziyada fövqəladə və səlahiyyətli səfiri İrfan Davudov, Aİİ rəhbərliyi, İnstitutun müəllim və əməkdaşları iştirak ediblər.





Aİİ İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizovanın moderatorluğu ilə baş tutan görüşdə professor Osman Bakar İslam ilə elm arasında münasibətlər, İslam dünyasında elmi fəaliyyətlərin tarixi, İslam düşüncəsində elmin rolu, mədəniyyətlərarası əlaqələr və digər mövzular barədə söhbət açıb.

Görüş mövzu ətrafında müzakirələrlə davam edib.

# Əməkdaşlıq müqaviləsi imzalanıb



Azərbaycan İlahiyyat İnstitutu Rusiya Federasiyası Dağıstan Respublikasının Dərbənd şəhərində yerləşən Şeyx Abdulla Əfəndi adına İslam Universiteti ilə 16 mart 2023-cü tarixində əməkdaşlıq müqaviləsi imzalayıb.

Aİİ rektoru, dosent Aqil Şirinov Şeyx Abdulla Əfəndi adına İslam Universitetinin rektoru Arif Saidovu və həmin ali təhsil müəssisəsinin Himayəçilər Şurasının sədri Şahabitdin Kərimovu salamlayaraq, təmsil etdiyi ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. Bildirib ki, bakalavriat səviyyəsi üzrə "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları üzrə qəbul həyata keçirən İnstitutda ali təhsil tam ödənişsizdir. Təhsilalanlar burada dövlətin tam qayğısı ilə əhatə olunub, təqaüddən əlavə yeməkpulu, ödənişsiz dərsliklərlə təmin olunurlar.

Aİİ rektoru daha sonra bildirib ki, İnstitut xarici ölkələrin qabaqcıl təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri qurmaqla, tədrisin məzmununu, kadr hazırlığını, idarəetmə sistemini və infrastrukturu qabaqcıl beynəlxalq təcrübəyə və Azərbaycanın inkişaf konsepsiyasına uyğun təmin etməyə çalışır.

Şeyx Abdulla Əfəndi adına İslam Universitetinin nümayəndə heyəti təmsil etdikləri müəssisə haqqında geniş məlumat verib, mövcud ixtisaslar, tədris və tədqiqat mərkəzləri barədə bəhs edib.

Ali təhsil müəssisəsinin rəhbərləri ikitərəfli əməkdaşlıq müqaviləsi imzalayıblar.

Sonda qonaqlar İnstitutun inzibati binası ilə tanış olublar.



## Baş müfti müşaviri İnstitutda

Misir Baş müftisinin Baş müşaviri, Ümumdünya Fətva Evlərinin Baş katibi İbrahim Nəcim 17 mart 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

Aİİ rektoru, dosent Aqil Şirinov qonağı salamlayaraq, onu ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Daha sonra İnstitutun fəaliyyəti, hədəfləri haqqında geniş məlumat verən rektor mövcud ixtisaslar barədə də bəhs edib. Bildirib ki, İnstitut iki istiqamət üzrə mütəxəssislər hazırlayır: məscidlərdə imam və din xadimi kimi fəaliyyət göstərəcək İslam alimləri və ölkənin müvafiq dövlət qurumlarında çalışacaq əməkdaşlar.

Aİİ-nin xarici ölkə universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduğunu qeyd edən A.Şirinov bildirib ki, dünyanın bir çox tanınmış ali təhsil müəssisələri ilə ikitərəfli protokollar, memorandumlar imzalanıb.

İnstitut rəhbəri qonağa Azərbaycanda mövcud dövlət-din münasibətləri haqqında məlumat verib. Vurğulayıb ki, ölkəmizdə mövcud olan bütün dinlərin nümayəndələri sülh və mehribanlıq şəraitində birgə yaşayırlar.

Misir Baş müftisinin Baş müşaviri, Ümumdümya Fətva Evlərinin Baş katibi İbrahim Nəcim ali təhsil müəssisəsində olmaqdan məmnunluğunu ifadə edib. Aİİ-nin fəaliyyətinə uğurlar arzulayan qonaq ikitərəfli qardaşlıq əlaqələrinin, həmçinin elm, təhsil və maarifləndirmə sahəsində əməkdaşlığın tərəfdarı olduğunu vurğulayıb.

Görüşdə tərəflər arasında təhsil və elm sahəsində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

Sonda qonaq İnstitutun inzibati binası ilə tanış olub.

*Pakistan Müsəlman İnstitutunun sədri Sahibzada Sultan Ahmed Ali 18 mart 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.*





*Görüşdə iki ali təhsil müəssisəsi arasında imzalanan əməkdaşlıq haqqında Memorandum çərçivəsində həyata keçiriləcək tədbirlər, konfranslar, vebinarlar və tələbə mübadiləsi barədə müzakirələr aparılıb.*

## *Dərslik nəşr olunub*

Azərbaycan İlahiyyat İnstitutu İslamşünaslıq kafedrasının müdiri, dosent Əhməd Niyazovun "Elmihal" adlı dərsliyi nəşr olunub.

Altı fəsildən ibarət olan dərslik İslam dininin ibadət əsaslarının təharət, dəstəmaz, namaz, oruc, zəkat, xüms, həcc və qurban mövzularını, namazda oxunan dua və qısa surələri əhatə edir. Kitabda dinin hökmləri Azərbaycanda tarixən mövcud olan ənənəvi dini məktəblər əsasında verilib. Ədəbiyyat nümunəsində dini məsələlərin dəlilləri və istinadları öz əksini müqayisəli formada tapıb. Kitab ilahiyyat təhsili alan tələbələr və həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

Məlumat üçün bildirək ki, Azərbaycan İlahiyyat İnstitutu kitab və dərsliklərin nəşri ilə bağlı bir sıra layihələr həyata keçirir. "İlahiyyat nəşrləri" adı altında layihəyə müəllimlərimizin və bu sahədə çalışan mütəxəssislərin kitablarının müxtəlif dillərdən tərcümə olunan əsərlərinin nəşri daxildir. Eyni zamanda, İnstitutun qarşısına qoyduğu məqsədlərdən biri də ilahiyyat sahəsindəki problemləri araşdırmaq, beynəlxalq standartlara cavab verən tədqiqatlar aparmaq və onları nəşr etdirməkdir.




## Maarifləndirmə tədbirləri başlayıb

Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti, təhsil imkanları barədə ictimaiyyətin məlumatlandırılması, eyni zamanda, 2023-2024-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə 3 aprel 2023-cü il tarixində respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərinə başlanılıb. İnstitutun ilk səfəri Qaradağ rayonunda baş tutub.

Tədbirdə abituriyentlər, orta məktəb müəllimləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri, din xadimləri iştirak ediblər.

Qaradağ Rayon İcra Hakimiyyəti başçısının müavini Təranə İsmayılova tədbiri giriş sözü ilə açaraq qeyd edib ki, Respublika Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə təhsil sisteminin inkişafı ilə bağlı aparılan islahatlar, eyni zamanda, gənclərimizin yüksəkintellektli savadlı kadrlar kimi yetişmələri üçün həyata keçirilən tədbirlər dövlət siyasətinin başlıca istiqamətlərindəndir.

T.İsmayılova daha sonra tədbir iştirakçılarına AİI haqqında məlumat verərək bildirib ki, hazırda dövlətdin münasibətlərinin sağlam təməllər üzərində inkişafı, eyni zamanda, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində ali təhsil müəssisəsinin fəaliyyəti təqdirəlayiqdir.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin yaranması, fəaliyyəti və qarşıda duran hədəfləri barədə geniş məlumat verib.

M.Mürsəlov bildirib ki, İnstitutun əsas məqsədi sağlamdüşüncəli, Vətənini sevən, milli məfkurəyə sahib, mənəvi dəyərlərimizi qoruyan din xadimləri və dinşünas mütəxəssislərin cəmiyyətə inteqrasiyasını təmin etməkdir. Ölkəmizdə mövcud olan sağlam dini mühiti qorumağın vacibliyini qeyd edən M.Mürsəlov vurğulayıb ki, yad qüvvələrin bu birgəyaşayış ənənəmizə, tolerant mühitimizə xələl gətirməsinə imkan verməməliyik.

M.Mürsəlov daha sonra İnstituta qəbul olunacaq hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. Həmçinin onların yeməkpulu ilə təmin ediləcəklərini, dərslərdən əlavə, ödənişsiz xarici dil kurslarında iştirak edəcəklərini və digər üstünlüklərə sahib olacaqlarını da nəzərə çatdırıb.

İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müdiri Anar Qafarov tələbələrin daha yaxşı təhsil almaları üçün ali təhsil müəssisəsində yaradılan şəraitdən söhbət açıb, həmçinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Qeyd edib ki, İnstitut kollektivi gənclərin zəngindünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadrlar kimi yetişmələri istiqamətində səylə çalışır.

Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov çıxışında abituriyentlərə İnstituta qəbul şərtləri barədə məlumat verib. Bildirib ki, AİI-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında da ətraflı bəhs edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Bakı şöbəsinin əməkdaşı Elşən Quliyev gənclərin milli-mənəvi dəyərlərə bağlı formada böyümələrinin vacibliyinə toxunub. E.Quliyev Azərbaycanda ödənişsiz tədris həyata keçirən yeganə ali dini təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunda təhsil almağın üstünlükləri və gələcək perspektivləri barədə fikirlərini bölüşüb.

Tədbirdə AİI-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

# Heydər Əliyevin yubiley tədbiri







Azərbaycan İlahiyyat İnstitutunda 5 aprel 2023-cü il tarixində "Heydər Əliyev və dövlətimizin dini məbədlərə qayğısı kontekstində milli-mənəvi dəyərlərimiz" mövzusunda tədbir keçirilib.

Tədbir Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.

AMEA akademik Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu Din və ictimai fikir şöbəsinin müdiri, Şərqşünaslıq İnstitutu Gənc Alim və Mütəxəssislər Şurasının sədri, f.f.d. Elnur Mustafayev çıxış edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin həyat tarixçəsinə nəzər saldıqda, onun Azərbaycan xalqının çoxəsrlik adət-ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub-saxlanılmasında və tolerantlıq mühitinin möhkəmləndirilməsində müstəsna rol oynadığının şahidi oluruq. E.Mustafayev qeyd edib ki, məhz ulu öndər Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra, ölkəmizdə dini etiqad azadlığının təmin olunması, dövlət-din münasibətlərinin hüquqi əsaslarla tənzimlənməsi, dini dözümlülük ənənələrinin möhkəmləndirilməsi, milli-mənəvi dəyərlərimizin qorunması və dini abidələrimizin bərpası istiqamətində sistemli, ardıcıl və məqsədyönlü tədbirlər həyata keçirilib.

Məruzəçi ulu öndər Heydər Əliyevin Qafqazda İslamın yayılma tarixinin öyrənilməsinə, bu sahədə tədqiqatların aparılmasına xüsusi diqqət verdiyini vurğulayıb. Bildirib ki, Ulu Öndər ölkəmizdə dini ibadət ocaqlarının inşasına, təmir və bərpasına xüsusi əhəmiyyət verirdi: "Onun həmin dövrdə din sahəsində verdiyi ilk önəmli qərarlardan biri Bibiheybət məscidinin təmir və bərpası ilə bağlı idi. Məlum olduğu kimi, Azərbaycan xalqının yaddaşlarında xüsusi iz buraxan bu ibadət ocağı sovet hakimiyyəti illərində güclü repressiyaya məruz qalaraq dağıdılmışdı. Ümummilli Liderin diqqət və qayğısı ilə sözügedən ibadət ocağı qısa müddətdə yüksək səviyyədə təmir və bərpa olunaraq dindarların istifadəsinə verildi. Məscidin açılışında Heydər Əliyev özü iştirak edərək, geniş və ətraflı nitq də söylədi".

E.Mustafayev daha sonra vurğulayıb ki, məhz həmin illərdə əsası qoyulan və hazırda uğurla həyata keçirilən uzaqgörən siyasətin nəticəsidir ki, Azərbaycanda dövlət müstəqilliyindən əvvəl 17 məscid mövcud idisə, hazırda məscidlərin sayı iki mindən çoxdur.

Bütün bu uğurlara Ümummilli Liderin hakimiyyəti dövründən başlayaraq, ölkəmizdə dövlət-din münasibətlərinin hüquqi tənzimlənməsi, bütün dinlərin fəaliyyətinə sərbəst şərait yaradılması və bu sahəyə böyük diqqət və qayğı göstərilməsi nəticəsində nail olunmuşdur.

# Din xadimləri ilə görüş

10 aprel 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov Sumqayıtda din xadimləri ilə görüşüb.

Görüşdə Sumqayıt Şəhər İcra Hakimiyyəti İctimai və humanitar məsələlər şöbəsinin müdir müavini, dini qurumlarla işin təşkilatçısı Fərman Kazımov, Sumqayıt Cümə məscidinin imamı Rauf Sərdarov və digər din xadimləri iştirak ediblər.

Aİİ rektoru Aqil Şirinov təmsil etdiyi İnstitut haqqında geniş məlumat verib, müəssisədə təhsilin tamamilə ödənişsiz olduğunu vurğulayıb. Rektor daha sonra bildirib ki, Azərbaycanda yüksəksəviyyəli ali dini təhsil ocağının olması  xaricə gedib dini təhsil almaq ehtiyacını aradan qaldırır. “Dinşünaslıq” və “İslamşünaslıq” ixtisasları üzrə tələbə qəbulu həyata keçirən ali təhsil müəssisəsində tələbələrə bütün dərsliklərin pulsuz paylandığını, eyni zamanda, onlara yeməkpulu və adlı təqaüdlərin də verildiyini diqqətə çatdırıb.





Rektor qeyd edib ki, hər bir ölkənin özünəməxsus dini mühiti mövcuddur və bu xüsusiyyətlər mütləq nəzərə alınmalıdır: “Məsələn, digər ölkədə verilən din təhsilində istər-istəməz onların öz ənənələrinin spesifik xüsusiyyətləri nəzərə alınır və dini təhsil ona uyğun şəkildə tədris olunur. Bizdə də təhsildə Azərbaycan reallığı, ölkəmizin tarixi dini ənənəsi əsas götürülür. Beləcə, İnstitutumuzdan məzun olacaq tələbələr dini insanlara olduğu kimi, radikallıqdan, xurafatdan uzaq, elmi şəkildə çatdıra bilən kadrlar olacaqlar. Bütün bunların fonunda dəyərlərimizi özündə əks etdirən dini təhsilin aparılması üçün ixtisaslaşmış kadrların hazırlanması Azərbaycan İlahiyyat İnstitutunun qarşısında duran ən mühüm vəzifələrdən biridir”.

Görüş müzakirələrlə davam edib.



# Masallı məktəbliləri məlumatlandırılıb

Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti, təhsil imkanları barədə ictimaiyyətin məlumatlandırılması, eyni zamanda, 2023-2024-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri davam edir.

İnstitutun növbəti səfəri 12 aprel 2023-cü il tarixində Masallı rayonuna olub. Tədbirdə abituriyentlər, orta məktəb müəllimləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən Masallı Rayon İcra Hakimiyyəti başçısının müavini Aybəniz Qafarova ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı istiqamətində atılan məqsədyönlü addımlar barədə məlumat verib. Azərbaycan İlahiyyat İnstitutunun qarşısında mühüm vəzifələrin dayandığını qeyd edən A.Qafarova ali təhsil müəssisəsinə gələcək fəaliyyətində uğurlar arzulayıb.

Masallı rayonu təhsil sektorunun müdiri Qoşqar Hətəmov çıxışında bildirib ki, ölkəmizdə təhsilalanların hərtərəfli inkişafı, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli təhsil almaları üçün lazım olan bütün şərait yaradılıb.

Aİİ rektoru Aqil Şirinov müasir Azərbaycanda dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulduğunu diqqətə çatdırıb. Bildirib ki, ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verilir. Bu sahədə ulu öndər Heydər Əliyev tərəfindən yaradılan müdrik siyasi-mənəvi xətt Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Rektor vurğulayıb ki, ölkəmiz bütün sahələrdə olduğu kimi, din sahəsində də nümunəvi ölkəyə çevrilib.





A.Şirinov daha sonra bildirib ki, ölkəmizdə dinlərarası və məzhəblərarası sabitliyi pozmağa çalışan yad qüvvələr bilməlidirlər ki, xalqımız belə təhdidlərə qarşı hər zaman birlikdə mübarizə aparacaq.

Aİİ rəhbəri İnstitutun məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib. Ali təhsil müəssisəsində mövcud ixtisaslar, keçirilən fənlər barədə söhbət açıb. A.Şirinov yüksəkixtisaslı mütəxəssis kadrların hazırlanması üçün Azərbaycan İlahiyyat İnstitutunda tam şəraitin yaradıldığını, təhsilin tamamilə ödənişsiz olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, qəbul olan abituriyentlər nəinki ödənişsiz təhsil alacaqlar, hətta yeməkpulu və pulsuz dərsliklərlə də təmin olunacaqlar. İlahiyyat İnstitutu sağlam dini düşüncəli, Vətənini, xalqını sevən, zəngin dünyagörüşlü gənclərimizin yetişməsi üçün bütün imkanlarını səfərbər edir.



Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov abituriyentlərə İnstituta qəbul qaydaları barədə məlumat verib. Bildirib ki, Aİİ-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında ətraflı bəhs edib.

Tədbirdə Aİİ-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

# Bölgədə din xadimləri ilə görüş



13 aprel 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov Masallıda din xadimləri ilə görüşüb.

Görüşdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Masallı bölgəsi üzrə şöbəsinin müdiri Elvin Hüseynli, Qafqaz Müsəlmanları İdarəsi Qazılar Şurasının üzvü Ağarəşid Talıbov və digər din xadimləri iştirak ediblər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin müdiri Elvin Hüseynli





çıxışında bildirib ki, Respublika Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə 2018-ci ildə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutu yaradılıb. Ali təhsil müəssisəsi yarandığı gündən ölkəmizdə tolerant və multikultural mühitin, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində səylə çalışır. Aİİ bu dəyərləri qoruyacaq, Vətəninə, xalqına ləyaqətlə xidmət edəcək savadlı din xadimlərinin yetişdirilməsi yönündə səylə fəaliyyət göstərir.

Aİİ rektoru Aqil Şirinov təmsil etdiyi İnstitut haqqında geniş məlumat verib, müəssisədə təhsilin tamamilə ödənişsiz olduğunu vurğulayıb. Rektor bildirib ki, sərəncamda da qeyd olunduğu kimi, İnstitutun yaradılmasında əsas məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

İnstitut rəhbəri daha sonra bildirib ki, din sahəsində mütəxəssis yetişdirərkən bir məqama xüsusi diqqət yetirilməlidir. Cəmiyyətə təkcə savadlı din mütəxəssisləri və xadimləri deyil, bununla yanaşı, Azərbaycanın milli dəyərlərini və ictimai strukturunu mənimsəmiş kadrlar lazımdır. Unutmaq olmaz ki, din müasir dünyada, təəssüf ki, təkcə mənəviyyat deyil, eyni zamanda, təhlükəsizlik məsələsidir.

Ölkəmizdə İlahiyyat İnstitutunun timsalında yüksəksəviyyəli ali dini təhsil ocağının fəaliyyət göstərdiyini qeyd edən rektor bildirib ki, gənclərimiz, artıq dərin dini və dünyəvi biliklərə yiyələnərək, din xadimi ola bilərlər və bunun üçün xaricə gedib dini təhsil almağa ehtiyac yoxdur. Rektor “Dinşünaslıq” və “İslamşünaslıq” ixtisasları üzrə tələbə qəbulu həyata keçirən ali təhsil müəssisəsində tələbələrə bütün dərsliklərin pulsuz paylanıldığını, eyni zamanda, onlara yeməkpulu və adlı təqaüdlərin də verildiyini diqqətə çatdırıb.

QMİ Qazılar Şurasının üzvü Ağarəşid Talıbov din təhsilinin önəmindən bəhs edib. Sovet vaxtında dinə münasibət barədə danışan qazı A.Talıbov Azərbaycan müstəqillik qazandıqdan sonrakı mərhələdə dövlət-din münasibətlərindən, dövlətin dini ibadət ocaqlarına qayğısından söhbət açıb. Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının da bu sahədə atılan ən önəmli addımlardan biri olduğunu vurğulayıb.

Görüş müzakirələrlə davam edib.

# Şagirdlər İlahiyyat İnstitutunu ziyarət ediblər



Bakının Suraxanı rayonunda təhsil alan bir qrup şagird 13 aprel 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib.

Ziyarət Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov tədbir iştirakçılarını salamlayaraq, onları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. Rektor İlahiyyat İnstitutunda mövcud ixtisaslar, keçilən fənlər, tələbələrə dəstək xidmətləri haqqında geniş məlumat verib.

A.Şirinov Azərbaycan müstəqillik qazandıqdan sonra, ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlət-din münasibətlərinin inkişafı istiqamətində atılan məqsədyönlü addımların Ümummilli Liderin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyini diqqətə çatdırıb. Rektor vurğulayıb ki, ölkəmizin dini mühitində mövcud olan sabitlik xarici dövlətlər tərəfindən tədqiq edilir və nümunə göstərilir. AİI rəhbəri xarici qüvvələrin mövcud sabitliyimizi pozmaq cəhdlərinin qarşısının qətiyyətlə alındığını və xalqımızın belə qüvvələrə qarşı birlikdə mübarizə apardığını və bundan sonra da aparacağını diqqətə çatdırıb.

Azərbaycan İlahiyyat İnstitutunda təhsilalanların üzərinə düşən böyük məsuliyyətdən bəhs edərkən rektor qeyd edib ki, ali təhsil müəssisəsində mənəvi sərhədlərimizin keşiyində duracaq gənclərimiz yetişir.

Suraxanı Rayon İcra Hakimiyyəti başçısının müavini Könül Axundova çıxış edərək, Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının əhəmiyyətindən, məqsədyönlü fəaliyyətindən bəhs edib. Bildirib ki, gənclərimizin yad qüvvələrin təsirindən qorunması üçün belə ali təhsil müəssisəsinin olması vacib idi. Ölkə rəhbərliyinin gənclərimizin milli-mənəvi dəyərlərimizə bağlı, vətənpərvər ruhda böyümələri üçün dövlət-din münasibətlərinin inkişafı istiqamətində atdığı məqsədyönlü addımlar təqdirəlayiqdir.

Tədbir şagirdlərin suallarının cavablandırılması ilə yekunlaşıb.

Daha sonra şagirdlər İnstitutun inzibati binası ilə tanış olublar.

# Rektor Astarada din xadimləri ilə görüşüb



Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov Astarada din xadimləri ilə görüşüb.

Görüşdə Astara Rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini – dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov və din xadimləri iştirak ediblər.

Tədbirdə Azərbaycan İlahiyyat İnstitutu haqqında geniş məlumat verilib.

Din xadimlərinin sualları cavablandırılıb.



# Astara rayonuna səfər



Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti, təhsil imkanları barədə ictimaiyyətin məlumatlandırılması, eyni zamanda, 2023-2024-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərinə başlanılıb.

İnstitutun növbəti səfəri 14 aprel 2023-cü il tarixində Astara rayonuna olub.



Tədbirdə abituriyentlər, orta məktəb müəllimləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Tədbirdə giriş nitqi ilə çıxış edən Astara Rayon İcra Hakimiyyəti İctimai-siyasi və humanitar məsələlər şöbəsi müdirinin müavini – dini qurumlarla işin təşkilatçısı Mərasim Hacıyev İlahiyyat İnstitutunun yaradılması, fəaliyyəti haqqında məlumat verib. Bildirib ki, ali təhsil müəssisəsi ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm işlər görür.

Lənkəran–Astara regional təhsil sektorunun baş məsləhətçisi Elçin Mirzəzadə çıxışında bildirib ki, ölkəmizdə təhsilalanların hərtərəfli inkişafı, milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi və keyfiyyətli tədrislə təmin olunmaları üçün lazım olan bütün şərait yaradılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov çıxış edərək, ölkəmizdə dövlət-din münasibətlərinin inkişafı istiqamətində Prezident cənab İlham Əliyevin Sərəncamı ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasının mühüm addımlardan biri olduğunu vurğulayıb. O, tədbir iştirakçılarına İlahiyyat İnstitutunun rəhbərliyi və müəllimləri haqqında məlumat verərək bildirib ki, ali təhsil müəssisəsində çalışan hər bir pedaqoq dünyasəviyyəli alimdir.

İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov çıxışında ölkəmizdə din sahəsinə, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. O qeyd edib ki, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə din sahəsində aparılan uğurlu siyasətin nəticəsində hazırda cəmiyyətimizdə tolerant və multikultural mühitdə sabitlik hökm sürür.

AİI rəhbəri daha sonra İnstitutun məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib. Ali təhsil müəssisəsində mövcud ixtisaslar, keçirilən fənlər barədə söhbət açıb.

A.Şirinov bildirib ki, ölkəmizdə mövcud sabitliyi pozmaq istəyən yad qüvvələrə qarşı mübarizə üçün sağlam dini düşüncəli, Vətənini, xalqını sevən gənclərimizin yetişməsi vacibdir. A.Şirinov yüksəkixtisaslı mütəxəssis kadrların hazırlanması üçün Azərbaycan İlahiyyat İnstitutunda tam şəraitin yaradıldığını, təhsilin ödənişsiz olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, qəbul olan abituriyentlər nəinki ödənişsiz təhsil alır, hətta pulsuz dərsliklər, yeməkpulu ilə də təmin olunurlar.

Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov abituriyentlərə İnstituta qəbul qaydaları barədə məlumat verib. Bildirib ki, AİI-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında ətraflı bəhs edib.

Tədbirdə AİI-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

# Maarifləndirmə tədbirləri davam edir



Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti, təhsil imkanları barədə ictimaiyyətin məlumatlandırılması, eyni zamanda, 2023-2024-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirlərinə başlanılıb. İnstitutun növbəti səfəri 20 aprel 2023-cü il tarixində Neftçala rayonuna olub.

Tədbirdə abituriyentlər, orta məktəb müəllimləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.



Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Neftçala şəhər 1 saylı tam orta məktəbin direktoru Ülviyyə Abdullayeva giriş sözü ilə çıxış edərək, gənclərin milli-mənəvi ruhda böyümələrinin vacibliyinə toxunub. Ü.Abdullayeva ölkəmizdə gənclərin savadlı kadr kimi yetişmələri üçün hər bir şəraitin yaradıldığını diqqətə çatdırıb.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Şirvan bölgəsi üzrə şöbə müdiri Sənan Xəlilov gənclərin milli-mənəvi dəyərlərə bağlı formada böyümələrinin vacibliyinə toxunub. S.Xəlilov Azərbaycanda ödənişsiz tədris həyata keçirən yeganə ali dini təhsil müəssisəsi olan Azərbaycan İlahiyyat İnstitutunda təhsil almağın üstünlükləri və gələcək perspektivləri barədə fikirlərini bölüşüb.

Azərbaycan İlahiyyat İnstitutu (AİI) İlahiyyat fakültəsinin dekanı Elnurə Əzizova ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. O, İnstituta qəbul olunacaq hər bir abituriyentin dövlətin qayğı və diqqəti ilə yaradılmış lazımi şəraitdən, ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanacağını bildirib. Həmçinin onların yeməkpulu ilə təmin ediləcəklərini, dərslərdən əlavə, ödənişsiz xarici dil kurslarında iştirak edəcəklərini və digər üstünlüklərə sahib olacaqlarını da nəzərə çatdırıb.

AİI-nin müəllimi Ənvər Mustafayev tələbələrin daha yaxşı təhsil almaları üçün ali təhsil müəssisəsində yaradılan şəraitdən söhbət açıb, həmçinin tədris prosesi, keçirilən fənlər haqqında məlumat verib. Qeyd edib ki, İnstitut kollektivi gənclərin zəngin dünyagörüşlü, dərin dini və dünyəvi biliklərə yiyələnən bacarıqlı kadrlar kimi yetişmələri istiqamətində səylə çalışır.

Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov çıxışında abituriyentlərə İnstituta qəbul şərtləri barədə məlumat verib. Bildirib ki, AİI-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında da ətraflı bəhs edib.

Tədbirdə AİI-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

# “Türk-İslam sənətləri” sərgisi



Azərbaycan İlahiyyat İnstitutunda “Türk-İslam sənətləri” sərgisi keçirilib. Sərgidə rəssam Tünzalə Məmmədzadənin və “Türk-İslam sənətlərinin tədrisi” kursu iştirakçılarının əsərləri nümayiş olunub.

Tədbirdə TEM-ART Sənət Mərkəzinin təsisçisi, layihə rəhbəri, rəssam Tünzalə Məmmədzadə sərgi haqqında məlumat verib. Bildirib ki, TEM-ART Sənət Mərkəzi və Mənəvi Dəyərlərin Təbliği Fondunun birgə layihəsi çərçivəsində təşkil olunan “Türk-İslam sənətlərinin tədrisi” kursunda gənclərə İslam sənətləri ilə bağlı biliklərin öyrədilməsi, təsviri sənətdə islami mövzuların tətbiqi, islami ornamentlərin tədqiq edilməsi və praktiki tətbiqi, seminarların və sərgilərin təşkil olunması nəzərdə tutulub.




Aİİ rektoru, dosent Aqil Şirinov çıxış edərək bildirib ki, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olub: “Ölkəmiz, eyni zamanda, İslam təzhib və təsvir sənətinin mərkəzlərindən biri olub. Təzadüfi deyil ki, Teymurilər və Osmanlılar dövründə bu sənətlərin inkişafında azərbaycanlı sənətkarlar əvəzsiz rol oynayıb”.

Aİİ rektoru qeyd edib ki, Bakı Şərq və Qərb sivilizasiyalarını bir-birinə qovuşduran çox mühüm və tarixi şəhərdir. Azərbaycanın qədim və zəngin tarixindən, mədəni abidələrindən, ölkə paytaxtının keçmiş və indiki mənzərəsindən bəhs edən A.Şirinov dövlət tərəfindən mədəni, dini və milli dəyərlərimizin qorunmasına göstərilən diqqət və qayğıdan söhbət açıb.




Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Cahid Bağcı Türkiyə–Azərbaycan qardaşlığından danışıb. İslam dəyərlərinin bizim üçün əziz olduğunu vurğulayan Türkiyə səfiri bildirib ki, milli ənənələrimizin təməlində İslam dəyərləri dayanır.

Kuzey Kıbrıs Türk Cümhuriyyəti Bakı nümayəndəliyinin rəhbəri Ufuk Turguner və Türkiyənin Azərbaycandakı Səfirliyinin dini işlər üzrə müşaviri İhsan Açık çıxış edərək sərginin əhəmiyyətinə toxunub və işinə uğurlar arzulayıblar.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov çıxışında TEM-ART Sənət Mərkəzi ilə birgə təşkil etdikləri layihə çərçivəsində “Türk-İslam sənətlərinin tədrisi” kursunu müvəffəqiyyətlə bitirən bütün iştirakçıları təbrik edib. Bildirib ki, belə layihələrin keçirilməsi İslam sənətlərinin təbliği və təşviqi baxımından vacibdir.

Tədbirin sonunda "Türk-İslam sənətlərinin tədrisi" kursunu müvəffəqiyyətlə başa vuran iştirakçılara sertifikatlar təqdim olunub.

# Saatlı rayonunda şagirdlər məlumatlandırılıblar

Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti, təhsil imkanları barədə ictimaiyyətin məlumatlandırılması, eyni zamanda, 2023-2024-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri davam edib. İnstitutun növbəti səfəri 25 aprel 2023-cü il tarixində Saatlı rayonuna olub.

Tədbirdə abituriyentlər, orta məktəb müəllimləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri iştirak ediblər.

Saatlı Rayon İcra Hakimiyyəti aparatının böyük məsləhətçisi, Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi Mehriban Ağayeva giriş sözü ilə çıxış edərək, ölkəmizdə Vətənini sevən, onu layiqincə qoruyub təmsil edən, yüksəkixtisaslı gənclərin hazırlanmasının vacibliyinə toxunub. M.Ağayeva ölkəmizdə mövcud din siyasətinin ümumi prinsiplərindən bəhs edərək, Aİİ-də təhsil alıb məzun olan savadlı din xadimlərinə böyük ehtiyac duyulduğunu vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi İmişli bölgəsi üzrə şöbəsinin əməkdaşı Elvin İbrahimov təmsil etdiyi qurumun fəaliyyəti, Aİİ-nin yaradıma məqsədi haqqında məlumat verib. Azərbaycan İlahiyyat İnstitutunda təhsil almağın üstünlükləri və gələcək perspektivləri barədə fikirlərini bölüşüb.

Aİİ-nin Elm və innovasiyalar üzrə prorektoru Mirniyaz Mürsəlov ali təhsil müəssisəsinin yaranması, fəaliyyəti və qarşıda duran hədəfləri barədə geniş məlumat verib.

M.Mürsəlov bildirib ki, ali təhsil müəssisəsinin əsas məqsədi sağlamdüşüncəli, Vətənini sevən, milli məfkurəyə sahib, mənəvi dəyərlərimizi qoruyan din xadimləri və dinşünas mütəxəssislərin hazırlanmasıdır. Ölkəmizdə mövcud olan sağlam dini mühiti qorumağın vacibliyini qeyd edən M.Mürsəlov vurğulayıb ki, yad qüvvələrin birgəyaşayış ənənəmizə, tolerant mühitimizə xələl gətirməsinə imkan verməməliyik.

M.Mürsəlov ölkəmizdəki mövcud din siyasəti haqqında söhbət açıb. Qeyd edib ki, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu dövlət-din siyasəti hazırda cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Aİİ-nin müəllimi Faiq Əhmədzadə gənclərin dinə maraqlarından, İlahiyyat İnstitutunda təhsilin üstünlüklərindən söhbət açıb. O qeyd edib ki, ali təhsil müəssisəsinə qəbul olan abituriyentlər ödənişsiz təhsil və digər imtiyazlardan tam yararlanırlar. Həmçinin tələbələr yeməkpulu ilə təmin edilir, dərslərdən əlavə, ödənişsiz xarici dil kurslarına qatılır və digər üstünlüklərə malik olurlar.

İlahiyyat İnstitutunun müəllimi İbrahim Quliyev bölgədəki din xadimlərinin fəaliyyətindən söhbət açıb. Bildirib ki, övladlarımız öz vətənlərinə bağlı, milli ruhda tərbiyə olunmalı, dini bilgilər doğru və düzgün formada təbliğ olunmalıdır.







Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov abituriyentlərə İnstituta qəbul şərtləri barədə məlumat verib. Bildirib ki, Aİİ-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul həyata keçirilir. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında da ətraflı bəhs edib.

Tədbirdə Aİİ-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

# "Heydər Əliyev və dini tolerantlıq" mövzusunda respublika elmi konfransı




Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq, Azərbaycan İlahiyyat İnstitutu 26 aprel 2023-cü il tarixində "Heydər Əliyev və dini tolerantlıq" mövzusunda respublika elmi konfransı təşkil edib.

Konfransın plenar iclasında açılış nitqi ilə Azərbaycan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov çıxış edib. Bildirib ki, ümummilli lider Heydər Əliyev hakimiyyəti dövründə düşmən qüvvələrin dini zəmində pozuculuq fəaliyyətlərinə imkan verməyib. O, çoxmillətli, çoxkonfensiyalı Azərbaycanda tolerantlığın gözəl nümunəsinin əsasını qoyaraq, birgə mehriban yaşamağın mümkünlüyünü bütün dünyaya nümayiş etdirib.

M.Mürsəlov daha sonra qeyd edib ki, həm Azərbaycanda, həm də dünyanın bir çox ölkəsində Heydər Əliyevin din siyasətinə həsr edilmiş beynəlxalq konfranslarda məhz bu modelin elmi müzakirələrə səbəb olduğunu müşahidə edirik. M.Mürsəlov konfransda aparılan müzakirələrin elmin inkişafına müsbət töhfə verəcəyinə ümid etdiyini bildirib və konfransın işinə uğurlar arzulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında konfransın Heydər Əliyev irsinin öyrənilməsi baxımından mühüm əhəmiyyətə malik olacağını bildirib. Qeyd edib ki, xüsusilə gənc nəslə Ulu Öndərin siyasi xəttinin çatdırılması baxımından bu cür konfransların keçirilməsi olduqca əhəmiyyətlidir.

Azərbaycanın müstəqillik tarixinə nəzər yetirən M.Qurbanlı Heydər Əliyev siyasi hakimiyyətə gələrkən Azərbaycanda hökm sürən total böhran vəziyyətdən, cəmiyyətin bütün sahələrində Azərbaycan xalqının maraqlarına uyğun olmayan vəziyyətin mövcud olmasından danışıb. Bildirib ki, Ulu Öndərin hakimiyyətə gəlişindən sonra qısa zaman kəsiyində həyata keçirdiyi siyasət nəticəsində ölkəmiz müstəqilliyinin dönməzliyini təmin etdi, eyni zamanda, regionda öz mövqelərini möhkəmləndirdi, sosial, mənəvi, iqtisadi sahələrdə Azərbaycan millətinin maraqlarına uyğun siyasət həyata keçirdi. Əlavə edib ki, Ulu Öndərin Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi istiqamətində mühüm addımlarından biri də cəmiyyətin vahidliyinin, bütövlüyünün təmin olunması, milli ideologiyanın sistem halında təqdim edilməsi idi. Ümummilli Liderin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub-saxlanılması və möhkəmləndirilməsi istiqamətində gördüyü böyük işlər dini etiqad azadlığına geniş imkanlar açdı və nəticədə, dini icmaların normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldı. Bu gün Azərbaycanda mövcud olan dini dözümlülük və tolerantlıq dinə münasibətdə dövlət siyasəti kimi səciyyələndirilir. Bu siyasət dünya ölkələri tərəfindən məqbul bir model kimi qəbul olunur və bəyənilir.

Ulu Öndərin əsasını qoyduğu bu nümunəvi modelin bu gün uğurla davam etdirilməsinin önəminə toxunan Komitə sədri vurğulayıb ki, ölkəmizdə yaşayan müxtəlif millətlərə və dinlərə mənsub insanların mədəni müxtəlifliyinə, birgəyaşayış qaydalarına, onların inkişafı və harmonizasiyasına dövlət səviyyəsində qayğı göstərilir. Ölkəmiz hər zaman sülhsevər dövlət kimi dünyaya multikultural dəyərlərini, tolerant mühiti ilə özünün xoşməramlı mesajlarını göndərir. Bütün dinlərin və etnik qrupların nümayəndələrinin birgə yaşaması və ölkəmizin uğurlu inkişafına birgə töhfələr mövcud mühitin təzahürüdür.

Prezident İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın dövlət-din münasibətlərinə xüsusi həssaslıqla yanaşdıqlarını qeyd edən Komitə sədri ölkəmizdə dövlət-din münasibətləri, tolerantlıq sahəsində görülən işlər və həyata keçirilən layihələr barədə məlumat verib.

Azərbaycan Respublikası elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli müstəqil Azərbaycan Respublikasının formalaşmasında, xüsusilə də dini tolerantlığın dövlət siyasətinə çevrilməsində ulu öndər Heydər Əliyevin əvəzsiz rolunu vurğulayıb. O bildirib ki, Ümummilli Lider çıxışlarında hər zaman dini tolerantlığın bizim milli-mənəvi dəyərlərimizi özündə əks etdirdiyini vurğulayırdı. N.Məmmədli konfransda dəyərli məruzələrin olacağını nəzərə çatdıraraq, tədbirin işinə uğurlar arzulayıb.

Millət vəkili Ceyhun Məmmədov konfrans iştirakçılarını salamladıqdan sonra qeyd edib ki, Azərbaycan tarixən müxtəlif dinlərin sülh və anlaşma şəraitində yaşadığı məkan olub. Millət vəkili bildirib ki, İslam dini insanları digər dinlərə qarşı hörmətli, tolerant olmağa dəvət edir. Azərbaycanın müxtəlif sferalarda güclü sınaqlarla qarşı-qarşıya qaldığı bir zamanda, ulu öndər Heydər Əliyevin hakimiyyətə gəlməsi bütün sahələrdə olduğu kimi, dövlət-din münasibətlərinin tənzimlənməsində də mühüm hadisələrin baş verdiyini diqqətə çatdırıb. C.Məmmədov qeyd edib ki, məhz bu siyasətin nəticəsidir ki, hazırda bu tədbirdə yəhudi, xristian və İslam dininin nümayəndələri birlikdə iştirak edirlər.

C. Məmmədov daha sonra bldirib ki, 1995-ci ildə qəbul etdiyimiz Konstitusiyamızda bütün dinlərin qanun qarşısında bərabər olduğu təsbit olunmuşdur. Ulu öndər Heydər Əliyev siyasi xəttinin layiqli davamçısı cənab Prezident İlham Əliyev tərəfindən dövlət-din münasibətlərinin tənzimlənməsi, eyni zamanda, milli-mənəvi dəyərlərimizin qorunması istiqamətində mühüm addımlar atıldığını görürük.

Azərbaycan İlahiyyat İnstitutunun rəhbərliyi yanında İctimai Nəzarət Şurasının üzvü, Bakı Dövlət Universitetinin professoru Şahlar Əsgərov dahi liderin xalqımızın milli və dövlətçilik maraqlarının təmin olunmasında, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında xidmətlərini xatırladıb. Üzləşdiyi çətinliklərə, maneələrə, dövlət çevrilişi cəhdlərinə cəsarətlə sinə gərib xalqımızı vətəndaş müharibəsindən, müstəqilliyimizi itirmək təhlükəsindən qurtardığını, müasir tariximizə dövlətçiliyimizin xilaskarı, qurucusu kimi daxil olduğunu vurğulayıb.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayev qeyd edib ki, müasir Azərbaycanın qurucusu və memarı olan ulu öndər Heydər Əliyev güclü dövlət yaratmağa müvəffəq olmuşdur. M.Yevdayev bildirib ki, dahi rəhbər Dövlət Konstitusiyasının qəbuluna, dövlət dilinin qorunub-saxlanılmasına, iqtisadiyyatın gücləndirilməsinə, Əsrin müqaviləsinin reallaşdırılmasına, daxili və xarici siyasətin prioritetlərinin müəyyənləşdirilməsinə, milli-mədəni problemlərlə yanaşı, azərbaycançılıq ideologiyasının hazırlanmasına, digər təxirəsalınmaz və taleyüklü məsələlərin həllinə nail olmuşdur.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov tədbir iştirakçılarını salamladıqdan sonra, dəvətə görə AİI rəhbərliyinə təşəkkür edib. Heydər Əliyevin çoxşaxəli siyasətinin araşdırılması baxımından bu cür konfransların keçirilməsinin əhəmiyyətini nəzərə çatdırıb. Dahi rəhbərin hüquq quruculuğu, neft-qaz istiqamətində, iqtisadiyyat, din, tolerantlıq və multikulturalizm sahələrində həyata keçirdiyi islahatların bugünkü həyatımıza müsbət mənada təsirini vurğulayıb. İcraçı direktor Heydər Əliyevin hakimiyyətdə olduğu bütün illərdə din sahəsində gördüyü işləri diqqətə çatdırıb, xüsusilə multikulturalizm və tolerantlıq ənənələrinin əsasının onun tərəfindən qoyulduğunu və cənab Prezident İlham Əliyev





tərəfindən bu gün layiqli şəkildə davam etdirildiyini deyib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov qonaqları salamlayaraq, konfransın işinə uğurlar arzulayıb. Azərbaycan dövlətinin qurulmasında Ulu Öndərin xidmətlərini xüsusi vurğulayaraq, bu gün tolerant cəmiyyətdə yaşadığımıza görə dahi rəhbərə minnətdar olduğumuzu söyləyib.

Konfransın panellərində "Azərbaycanda dövlət-din münasibətləri: tarix və müasirlik"; "Tolerantlıq və multikulturalizm Azərbaycanda dövlət siyasətinin tərkib hissəsi kimi"; "Heydər Əliyev və Azərbaycanda din siyasətinin prioritetləri"; "Dünyada dövlət-din münasibətləri modelləri"; "Ümummilli Lider və Azərbaycanın müsəlman Şərqi siyasətinin prioritetləri"; "Qloballaşan dünyada dinlər və mədəniyyətlərarası dialoq"; "Ekstremizm, terrorizm və radikalizmlə mübarizədə din təhsilinin əhəmiyyəti"; "Heydər Əliyevin siyasətində mənəvi dəyərlər və milli ləyaqət anlayışı"; "Multikultural dəyərlərin formalaşmasında təhsilin rolu"; "Heydər Əliyevin siyasətində dünyəvilik və mənəvi dəyərlərin qorunması"; "Heydər Əliyevin milli-mənəvi dəyərlərə dair siyasi kursunun istiqamətləri"; "Heydər Əliyev və gənclər arasında milli-mənəvi dəyərlərin təbliği"; "Azərbaycanda tarixi, mədəni və dini abidələrinin qorunub-saxlanılması və bərpasında Ulu Öndərin rolu"; "Ümummilli Liderin milli-mənəvi və dini dəyərlərə dair siyasi irsinin davam etdirilməsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rolu" mövzularında məruzələr dinlənilib.

# AİI heyətinin Qusara səfəri







Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti, təhsil imkanları barədə ictimaiyyətin məlumatlandırılması, eyni zamanda, 2023-2024-cü tədris ili üzrə ali təhsil müəssisəsinə yüksəkintellektli və savadlı gənclərin cəlb olunmaları məqsədilə respublikanın bir sıra bölgələrində yerləşən orta məktəblərin yuxarı sinif şagirdləri üçün maarifləndirici xarakterli məlumatlandırma tədbirləri davam edib.

İnstitutun sonuncu səfəri 2 may 2023-cü il tarixində Qusar rayonuna olub. Tədbirdə abituriyentlər, orta məktəb müəllimləri, aidiyyəti dövlət qurumlarının nümayəndələri, din xadimləri iştirak ediblər.

Giriş nitqi ilə çıxış edən Qusar şəhər 6 nömrəli tam orta məktəbin direktoru Kəmalə Sadıqova tədbir iştirakçılarını salamlayıb. K. Sadıqova ali təhsil müəssisəsində tədrisin keyfiyyətinin önəmindən bəhs edib, İlahiyyat İnstitutunda bu amillərə xüsusi diqqət yetirildiyini vurğulayıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Quba bölgəsi üzrə şöbə müdiri Ramin Xudayev Azərbaycan İlahiyyat İnstitutu haqqında məlumat verib. Dinin insan həyatındakı əhəmiyyətli rolundan bəhs edən R.Xudayev ölkəmizin tolerantlıq nümunəsi olduğunu, bütün dünlərin nümayəndələrinin mehribanlıq şəraitində yaşadıqlarını diqqətə çatdırıb.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov çıxışında ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyədə olduğunu, Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu sahənin inkişafına, milli-mənəvi dəyərlərin qorunmasına böyük önəm verildiyini diqqətə çatdırıb. O qeyd edib ki, hazırda cəmiyyətimizdə tolerant və multikultural mühitin qorunması və inkişafı din sahəsində aparılan uğurlu siyasətin nəticəsidir.

AİI rəhbəri daha sonra İnstitutun məqsəd və hədəfləri haqqında ətraflı məlumat verib. Ali təhsil müəssisəsində keçirilən tədbirlər, seminarlar, "dəyirmi masa"lar barədə söhbət açan rektor bildirib ki, AİI-dən məzun olan gənclərin ölkəmizi xarici qüvvələrin yad təsirlərindən qoruyan, sağlam dini düşüncəli, Vətənini, xalqını sevən yüksəkixtisaslı kadrlar kimi yetişmələri istiqamətində məqsədyönlü tədris aparırıq.

A.Şirinov daha sonra ali təhsil müəssisəsində mövcud ixtisaslar, keçirilən fənlər barədə söhbət açıb. Rektor yüksəkixtisaslı mütəxəssis kadrların hazırlanmaları üçün Azərbaycan İlahiyyat İnstitutunda tam şəraitin yaradıldığını, təhsilin tamamilə ödənişsiz olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, qəbul olan abituriyentlər nəinki ödənişsiz təhsil alacaqlar, hətta pulsuz dərsliklər, yeməkpulu ilə də təmin olunacaqlar.

Ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov abituriyentlərə İnstituta qəbul qaydaları barədə məlumat verib. Bildirib ki, AİI-də magistratura və doktorantura səviyyələri üzrə də qəbul aparılır. E.Orucov xarici dillərə yiyələnmək imkanları; təqaüd proqramları; xaricdə təhsil; tələbələrin sosial həyatı; yay və qış məktəbləri haqqında ətraflı bəhs edib.

Tədbirdə AİI-nin fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib.

# “Gözəl Quranoxuma” müsabiqəsinin final mərhələsi keçirilib

Azərbaycan İlahiyyat İnstitutunda 4 may 2023-cü il tarixində ənənəvi olaraq hər il təşkil edilən “Gözəl Quranoxuma” müsabiqəsinin final mərhələsi keçirilib.

Müsabiqədə Aİİ İlahiyyat fakültəsinin tələbələri iştirak ediblər. İlahiyyat İnstitutunun prorektoru, dosent Mirniyaz Mürsəlov, İlahiyyat fakültəsinin dekan müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Kövsər Tağıyev, Dillər və ictimai fənlər kafedrasının müəllimi Ənvər Mustafayev münsiflər heyətində təmsil olunublar.

Aİİ-nin elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov müsabiqənin əhəmiyyətini vurğulayaraq, Qurani-Kərimi gözəl oxumaqla yanaşı, həm də mənasını anlamağın vacibliyini bildirib. M.Mürsəlov ali təhsil müəssisəsində mütəmadi olaraq istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılması istiqamətində müxtəlif müsabiqələrin davamlı olaraq həyata keçiriləcəyini nəzərə çatdırıb. Belə müsabiqələrin tələbələrə təcrübə qazandırdığını, inkişafına imkan verdiyini bildirib.

Tələbələr tərəfindən maraqla qarşılanan müsabiqədə qaliblər münsiflər heyətinin qiymətləndirməsi əsasında müəyyənləşib. Beləliklə, “Gözəl Quranoxuma” müsabiqəsində III kurs tələbəsi Əmrah Eminov I yerə, IV kurs tələbəsi Ramazan Qardaşov II yerə, II kurs tələbələri Zeynəb Xəlilli və Turqay Qurbanov III yerə layiq görülüblər.

Müsabiqənin qalibləri mükafatlandırılıb və iştirakçılara təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, müsabiqə seçim turu və final mərhələsindən ibarət olub.








# “Xalqın yaddaşında yaşayan düha: ulu öndər Heydər Əliyev xatirələrdə” mövzusunda konfrans

Azərbaycan İlahiyyat İnstitutu və “Türk Ağsaqqalları Arasında Əlaqələrin İnkişafi” (TAİB) İctimai Birliyinin birgə təşkilatçılığı ilə 4 may 2023-cü il tarixində “Xalqın yaddaşında yaşayan düha: ulu öndər Heydər Əliyev xatirələrdə” mövzusunda konfrans keçirilib.

Əvvəlcə ulu öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik ehtiram sükutu ilə yad edilib.

Açılış nitqi ilə çıxış edən AİI rektoru, dosent Aqil Şirinov bildirib ki, konfrans Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.

Aqil Şirinov ümummilli lider Heydər Əliyevin sovet dövründə və müstəqillik qazandıqdan sonra dahi şəxsiyyətin hakimiyyəti dövründə ölkəmizdə milli-mənəvi dəyərlərimizin qorunması uğrunda aparılan məqsədyönlü siyasətindən söhbət açıb. Hazırda bu siyasətin cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb.

TAİB sədri, akademik, YAP Veteranlar Şurasının üzvü Südeif İmamverdiyev dahi rəhbər, ulu öndər Heydər Əliyev haqqında xatirələrini bölüşüb, keçdiyi həyat yolundan söz açıb. S.İmamverdiyev sovet dövründə Ulu Öndərin Azərbaycanın ümum-İttifaq səviyyəsində yüksək mövqeyə yüksəldiyini vurğulayıb. O, dahi rəhbər Heydər Əliyevin ölkəmizin azadlığı və müstəqilliyi uğrunda misilsiz xidmətlərindən bəhs edib.

TAİB sədrinin müavini, Azərbaycan Televiziya və Radio Akademiyasının rektoru, Əməkdar mədəniyyət işçisi Telli Pənahqızı ulu öndər Heydər Əliyevin Azərbaycan mətbuatının inkişafına göstərdiyi tarixi xidmətlərdən, ölkə jurnalistikasına olan xüsusi diqqət və qayğısından danışaraq, onunla bağlı xatirələrini bölüşüb.

TAİB sədrinin müavini, sabiq dövlət qulluqçusu Eyvaz Hümbətov, TAİB Qadınlar Şurasının sədri, Dünya Türkologiya Mərkəzinin rəhbəri, tarix elmləri doktoru Güllü Yoloğlu, TAİB İdarə Heyətinin üzvü, Türkel Yayım Qrupunun rəhbəri Ramiz Məşədihəsənli və TAİB-in üzvü Tahir Quliyev xalqın yaddaşında yaşayan düha, ulu öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüblər. Dahi Ulu Öndərin Azərbaycan xalqı qarşısında, ölkəmizin müstəqilliyi, milli-mənəvi dəyərlərimizin qorunması uğrunda əvəzolunmaz xidmətlərindən bəhs edib.

Sonda TAİB sədri, akademik Südeif İmamverdiyev “Türk Ağsaqqalları Arasında Əlaqələrin İnkişafi” İctimai Birliyi tərəfindən AİI rektoru, dosent Aqil Şirinovu Təşəkkürnamə ilə təltif edib.









# Elmi Şuranın növbəti iclası



Azərbaycan İlahiyyat İnstitutunda 8 may 2023-cü il tarixində Elmi Şuranın növbəti iclası keçirilib.

İclasda gündəlikdə duran məsələlər, İnstitutun gələcək fəaliyyəti barədə müzakirələr aparılıb.

Ali təhsil müəssisəsinin rektoru, dosent Aqil Şirinov cari məsələlərin həlli istiqamətində fikirlərini bölüşüb. Qarşıda duran vəzifələr haqqında bəhs edən A.Şirinov 2023-2024-cü tədris ili üçün İnstituta tələbə qəbulu zamanı yüksəkballı abituriyentlərin müəssisəyə cəlb edilmələrinin, eyni zamanda, ali təhsil ocağı haqqında maarifləndirmə tədbirlərinin aparılmasının vacibliyi məsələsinə toxunub. Rektor bu sahədə atılan addımlar barədə söhbət açıb.

İnstitutun xarici əlaqələr və beynəlxalq əməkdaşlıq fəaliyyətinin təşkili vəziyyətinə toxunan A.Şirinov gələcək səfərlər və beynəlxalq tədbirlər haqqında da Elmi Şura iştirakçılarını məlumatlandırıb.

Elmi Şurada, həmçinin İnstitut üzrə elmi seminarların planlaşdırılması və təşkili, magistranların elmi-tədqiqat fəaliyyətinin və dissertasiyalarının yazılması və digər cari məsələlər barədə müzakirələr aparılıb.

# Heydər Əliyevə həsr edilmiş elmi seminar






Azərbaycan İlahiyyat İnstitutunda 11 may 2023-cü il tarixində ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində elmi seminar keçirilib.

Tədbirin açılışında Aİİ İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova 44 günlük Vətən müharibəsinin zəfərlə nəticələnməsində müstəqil Azərbaycanın son otuzillik xarici siyasətinin mühüm rolu olduğunu qeyd edib. O, bu siyasətdə Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatı ilə münasibətlərinin xüsusi əhəmiyyət kəsb etdiyini vurğulayıb.

Məruzəçi – Bakı Dövlət Universiteti Tarix fakültəsinin dosenti Səidə Quliyeva "Heydər Əliyev və Qarabağ problemi İslam Əməkdaşlıq Təşkilatının müstəvisində" mövzusunda məruzə ilə çıxış edib. S. Quliyeva Heydər Əliyevin hakimiyyəti dövründə Azərbaycanın xarici siyasətində Qarabağ probleminin həlli üçün İƏT-lə qurulan münasibətlər haqqında geniş məlumat verib, bu münasibətlərin BMT və ATƏT-in Qarabağ probleminə baxışının formalaşmasına təsirini təhlil edib. Məruzəçi beynəlxalq təşkilatlarla siyasi, iqtisadi və mədəni sahələrdə aparılan bu siyasətin Qarabağ zəfəri ilə nəticələnən prosesə təsirini də təhlil edib.

Aİİ-nin tarix müəllimi, dosent Rəşad Mustafa tələbələrin İslam ölkələri ilə əlaqəli biliklərinə töhfəsi çərçivəsində İƏT-in rolunun vacibliyini vurğulayıb. Heydər Əliyevin beynəlxalq təşkilatlar, o cümlədən İƏT-lə münasibətlərin formalaşmasında rolunun tarixi əhəmiyyətini qeyd edib. Seminarın sonunda tələbələrin sualları cavablandırılıb.

# Şeir müsabiqəsi









Bakı Avrasiya Universiteti ilə Səudiyyə Ərəbistanı Krallığının Kral Abdulla bin Əbdüləziz adına Ərəb dilinə Xidmət üzrə Beynəlxalq Mərkəzin birgə yaratdığı "Ərəbşünaslıq Mərkəzi"nin təşkilatçılığı ilə respublikamızda fəaliyyət göstərən bəzi ali təhsil müəssisələrinin tələbələri arasında 15 may 2023-cü il tarixində şeir müsabiqəsi keçirilib. Müsabiqəyə ərəb dilini tədris edən ali təhsil müəssisələrinin, o cümlədən Azərbaycan İlahiyyat İnstitutunun tələbələri qoşulublar.

Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi Murad Kərəmovun müqəddəs kitabımız Qurani-Kərimdən mübarək ayələri oxuması ilə müsabiqəyə start verilib. İştirakçılar əvvəlcədən təyin edilmiş münsiflər heyətinin qarşısında ərəb dilində şeirlər səsləndiriblər. Münsiflər heyətində ölkəmizin görkəmli ərəbşünas alimləri – fil.f.d. Tofiq Abdullayev, dosent Salman Süleymanov, dosent Heybət Heybətov, dosent İlkin Əlimuradov və Səudiyyə Ərəbistanı Krallığının Bakıdakı Səfirliyi İqtisadiyyat və mədəniyyət şöbəsinin rəhbəri Vael Alşreef təmsil olunublar. Müsabiqənin yekun mərhələsinə 36 nəfər tələbə buraxılıb. Münsiflər heyəti müsabiqə iştirakçılarının şeri bədii cəhətdən təqdim etmək bacarıqlarını, ərəb dilində onu səlis ifadə etmək qabiliyyətlərini qiymətləndiriblər.

Tədbirdə Səudiyyə Ərəbistanı Krallığının Bakıdakı fövqəladə və səlahiyyətli səfiri Həməd bin Abdullah bin Səud bin Xudeyr də iştirak edib. Müsabiqə iştirakçılarını salamlayan səfir ərəb ədəbiyyatının müasir vəziyyəti və inkişafından danışıb. Ərəb şerinin öz məzmunu və bədii ifadə tərzi ilə ərəb mədəniyyətini tərənnüm etməsindən bəhs edən səfir gözəl şeir nümunələri təqdim etməklə tədbir iştirakçılarının diqqətini cəlb edib.

Müsabiqə iştirakçılarını qiymətləndirən münasiflər heyəti sonda qalibləri elan edib. Bakı Avrasiya Universitetinin tələbəsi Nərminə Məmmədova I yerə layiq görülüb. Azərbaycan İlahiyyat İnstitutunun tələbəsi Murad Kərəmov və Bakı Dövlət Universitetinin tələbəsi Simuzər Məmmədzadə II yeri, Bakı Dövlət Universitetinin tələbələri – Sahib İbayev və Mohammedali Axundov III yeri tutublar. Qaliblərə qiymətli hədiyyələr, pul mükafatı və sertifikatlar təqdim olunub.

# Moskvada Azərbaycan Elm və Mədəniyyət Günləri









Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin qatıldıqları Azərbaycan Elm və Mədəniyyət Günlərində iştirak etmək üçün 17 may 2023-cü il tarixindən Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində səfərdə olub.

Aİİ rektoru səfər çərçivəsində bir sıra görüşlər keçirib.

A.Şirinov öncə Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin birinci müavini, Moskva İslam İnstitutunun rektoru, professor Damir Muhetdinovla görüşüb. Görüşdə Azərbaycan İlahiyyat İnstitutu ilə Moskva İslam İnstitutu arasında imzalanmış əməkdaşlıq müqaviləsinə əsasən baş tutacaq bir sıra tədbirlər barədə fikir mübadiləsi aparılıb. Hər iki ali təhsil müəssisəsinin rəhbəri ilahiyyat sahəsində peşəkar kadrların hazırlanmasının vacibliyi məsələsinə toxunub, qarşıda duran vəzifələr haqqında söhbət açıb.

İlahiyyat İnstitutunun rektoru daha sonra Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri müfti Şeyx Ravil Qaynutdinlə görüşüb.

Rusiya Müsəlmanları Ruhani İdarəsinin, Rusiya Müftilər Şurasının sədri Şeyx Ravil Qaynutdin qonağı salamlayaraq, iki ölkə arasında elm, təhsil və maarifləndirmə sahəsində əməkdaşlıq əlaqələrinin uğurla davam etdirildiyini vurğulayıb.

Dini lider iki ölkə arasında elmi əlaqələrin və dost münasibətlərin inkişafından məmnunluğunu ifadə edib, eləcə də Azərbaycanın ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi münasibətilə təbriklərini bildirib. Qeyd edib ki, Sovet İttifaqının rəhbərlərindən biri olmuş, ağır sınaq illərində Azərbaycana başçılıq etmiş xalqın görkəmli oğlunun xatirəsi bir çox ölkədə hörmətlə anılır. Ümummilli Liderin yubileyi ilə əlaqədar Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin iştirak etdikləri Azərbaycan Elm və Mədəniyyət Günlərinin keçiriləcəyini diqqətə çatdırıb. O, Aİİ rektoru Aqil Şirinovu da burada görməkdən məmnun olduğunu bildirib.

**(Ardı 32-ci səhifədə)**

# Moskvada Azərbaycan Elm və Mədəniyyət Günləri









(Əvvəli 31-ci səhifədə)

Rektor Aqil Şirinov görüş üçün müftiyə təşəkkürünü bildirib, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyi münasibətilə təbrikinə görə minnətdarlığını vurğulayıb. Azərbaycanda əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulan dövlət-din münasibətlərinin hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini nəzərə çatdırıb. Rektor Azərbaycan İlahiyyat İnstitutunun fəaliyyəti haqqında da geniş söhbət açıb.

A.Şirinov xalqımızın haqq savaşı olan, Vətən müharibəsi zamanı göstərdikləri mənəvi dəstəyə görə dini liderə dərin minnətdarlığını bildirib.

Görüşdə tərəflər arasında təhsil və elm sahələrində qarşılıqlı münasibət, uzunmüddətli əməkdaşlıq, tədris prosesində əldə olunmuş nailiyyətlərin tətbiqi, mədəni əlaqələrin qurulması və möhkəmləndirilməsi haqqında ətraflı fikir mübadiləsi aparılıb.

AİI rektoru Aqil Şirinov səfər çərçivəsində Moskva Cümə məscidini ziyarət edib. Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsi sədrinin müavini Rafiq Fattahetdinovun 50 illik yubileyi ilə əlaqədar Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsində təşkil olunan ziyafətdə iştirak edib.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov 18 may 2023-cü il tarixində Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Azərbaycan Elm və Mədəniyyət Günləri çərçivəsində keçirilən "Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında mədəni və elmi əlaqələrin inkişafında ilahiyyat və multikulturalizm təcrübəsinin rolu" mövzusunda "dəyirmi masa"da iştirak edib.

Tədbirdə Aqil Şirinova Moskva İslam İnstitutunun rektoru, professor Damir Muhetdinov tərəfindən ali təhsil müəssisəsinin Fəxri professoru diplomu təqdim edilib.

AİI rektoru Aqil Şirinov "dəyirmi masa"da "Birgəyaşayış kontekstində Qafqazda mədəni-dini müxtəliflik tarixi ənənə kimi" mövzusunda məruzə ilə çıxış edib. O, məruzəsində Qafqazın tarixən dünyanın ən qarışıq etnik struktura malik bölgələrdən biri olduğunu diqqətə çatdırıb. Bildirib ki, bölgədə 50-dən çox müxtəlif dil və ləhcələrdə danışan etnik qruplar mövcuddur.

İnstitut rəhbəri daha sonra vurğulayıb ki, ermənilər istisna olmaqla, tarixən Qafqazda yaşayan xalqların dini dünyagörüşləri eksklüzivist (kənarlaşdırıcı) deyil, inklüzivist (birşləşdirici, əhatəedici) xarakterə malik olmuşdur. Bu da qeyd edilən bölgədə dini zəmində, ümumən, dözümlü bir mühitin yaranmasına səbəb olmuşdur.

Ümummilli lider Heydər Əliyevin 1998-ci ildə Bakıda "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilən beynəlxalq simpoziumdakı fikirlərini diqqətə çatdıran Aqil Şirinov dahi liderin bu sözlərini xüsusi vurğulayıb: "Qafqaz dünyanın nadir xarakter daşıyan bir bölgəsidir. Qafqaz öz təbiətinə, coğrafi quruluşuna görə və Qafqazda qədim zamanlardan məskunlaşmış, minillərboyu yaşamış insanların xüsusiyyətlərinə, onların xarakterlərinə görə çox nadir bir bölgədir. Eyni zamanda, hesab edirəm, Qafqaz dünya xalqları üçün dünyanın çox maraqlı bir hissəsidir".

Azərbaycanın İslamın Qafqazda yayılmasında və birgəyaşayış ənənəsinin formalaşmasında böyük rolu olduğunu diqqətə çatdıran rektor məruzəsində bildirib ki, ölkəmiz tarixən müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu məkan olmuşdur.

Tədbirdə, həmçinin Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı Səfirliyinin müşaviri Aqşin Əliyev, Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyinin əməkdaşı, 1982-1987-ci illərdə SSRİ Nazirlər Sovetinin birinci müavini olmuş Heydər Əliyevin şəxsi katibi Camal Camalov, M.V.Lomonosov adına Moskva Dövlət Universiteti Kommunikasiya sistemləri sosiologiyası kafedrasının müdiri, sos.e.d., prof. Ağamalı Məmmədov, Rusiya Dövlət Sosial Universiteti Sosial fəlsəfə, dinşünaslıq və ilahiyyat kafedrasının professoru, f.e.d. İbrahim Məlikov, "Moskva azərbaycanlılarının milli-mədəni muxtariyyəti" Regional İctimai Birliyinin sədri Bəxtiyar Həsənov, "Moskva azərbaycanlılarının milli-mədəni muxtariyyəti" Regional İctimai Birliyi sədrinin müavini Həşim Əliyev, digər ali təhsil və tədqiqat müəssisələrinin nümayəndələri iştirak ediblər.

* * *

Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov 19 may 2023-cü il tarixində Rusiya Dövlət Kitabxanasının Baş direktoru Vadim Duda ilə görüşüb.

Görüşdə ikitərəfli əməkdaşlıq əlaqələrinin perspektivləri müzakirə olunub.

Qeyd edək ki, Azərbaycan İlahiyyat İnstitutunun rektoru Aqil Şirinov ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar Moskva İslam İnstitutunda Azərbaycan alimlərinin, tanınmış mədəniyyət və elm xadimlərinin qatıldıqları Azərbaycan Elm və Mədəniyyət Günlərində iştirak etmək üçün Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində səfərdə olub.









# Nümayəndə heyətinin Malayziya səfəri










Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşlarından ibarət nümayəndə heyəti 22-26 may 2023-cü il tarixində Malayziyada işgüzar səfərdə olub.

Azərbaycanın Malayziyadakı Səfirliyinin və "İdrak" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən işgüzar səfərdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, AİI rektoru, dosent Aqil Şirinov, ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov və İnstitutun xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov iştirak ediblər.

Səfər çərçivəsində heyət ilk olaraq Malayziya Beynəlxalq İslam Universiteti nəzdində Beynəlxalq İslam Düşüncəsi və Sivilizasiyası İnstitutunu ziyarət edib.

Malayziya Beynəlxalq İslam Universiteti nəzdində Beynəlxalq İslam Düşüncəsi və Sivilizasiyası İnstitutu Vəhy bilikləri və humanitar elmlər fakültəsinin dekanı, professor Əbdüləziz Berghout qonaqları burada görməkdən məmnun olduğunu diqqətə çatdırıb. Görüşdə ikitərəfli əlaqələrin genişləndirilməsi, birgə tədbirlərin həyata keçirilməsi barədə müzakirələr aparılıb.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov ölkəmizdə mövcud dövlət-din münasibətləri barədə söhbət açıb. Azərbaycanın zəngin multikulturalizm modeli təqdim etdiyini vurğulayan sədr müavini ölkəmizin bu sahədəki təcrübəsinin kifayət qədər olduğunu, kilsə, sinaqoq və məscidlərin azad, sərbəst, təhlükəsiz, qarşılıqlı hörmət əsasında, tolerantlıq şəraitində fəaliyyət göstərdiklərini nəzərə çatdırıb.

Daha sonra AİI rektoru Aqil Şirinov təmsil etdiyi ali təhsil müəssisəsinin fəaliyyəti, hədəfləri haqqında geniş məlumat verib, həmçinin mövcud ixtisaslar barədə bəhs edib. Bildirib ki, İnstitut iki istiqamət üzrə – məscidlərdə imam və din xadimi kimi fəaliyyət göstərəcək İslam alimləri və ölkənin müvafiq dövlət qurumlarında çalışacaq mütəxəssislər hazırlayır.

AİI-nin xarici ölkə universitetləri ilə əməkdaşlıq əlaqələrinin qurulmasında maraqlı olduğunu qeyd edən A.Şirinov vurğulayıb ki, dünyanın bir çox tanınmış ali təhsil müəssisələri ilə ikitərəfli protokollar, memorandumlar imzalanıb.

Səfər çərçivəsində Malayziya İslam İncəsəti Muzeyi də ziyarət edilib.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşla-

rından ibarət nümayəndə heyəti işgüzar səfər çərçivəsində 24 may 2023-cü il tarixində Malayziya İslam Təfəkkürü İnstitutunda olub.

Malayziya İslam Təfəkkürü İnstitutunun sədri, dr. Muhammad Nur Manuty ilə görüş zamanı akademik heyət və tələbə mübadiləsi proqramları, dini radikalizm və islomofobiya ilə mübarizədə birgə fəaliyyətin təşkili ilə əlaqədar əməkdaşlığın həyata keçirilməsi və bu istiqamətdə atılacaq addımlar, gələcək planlar barədə müzakirələr aparılıb.

Malayziya İslam Təfəkkürü İnstitutunun sədri, dr. Muhammad Nur Manuty öncə təmsil etdiyi qurum haqqında geniş məlumat verib. Elmi nailiyyətlərin tətbiqi və təcrübə mübadiləsi barədə söhbət açan sədr qeyd edib ki, iki müəssisə arasında akademik, elmi və mədəni əlaqələrin qurulması vacibdir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov ölkəmizdə mövcud dövlətdin münasibətləri barədə söhbət açaraq bildirib ki, Azərbaycan xalqı hər zaman digər dinlərin və millətlərin nümayəndələri ilə dost, qardaşlıq və sülh şəraitində yaşayıb və bu ənənə bu gün də davam etməkdədir. Sədr müavini qeyd edib ki, bu baxımdan Azərbaycanda heç zaman milli və dini zəmində münaqişə baş verməyib. Təmsil etdiyi qurum haqqında məlumat verən G.İsmayılov daha sonra vurğulayıb ki, DQİDK dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

AİI rektoru, dosent Aqil Şirinov təmsil etdiyi ali təhsil müəssisəsinin fəaliyyət istiqamətləri, hədəfləri haqqında geniş məlumat verib, ikitərəfli əməkdaşlıq əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparıb.

“İslamşünaslıq” və “Dinşünaslıq” ixtisasları üzrə tədrisin həyata keçirildiyini qeyd edən İnstitut rəhbəri vurğulayıb ki, AİI iki istiqamət üzrə – məscidlərdə fəaliyyət göstərəcək din xadimləri və ölkənin müvafiq dövlət qurumlarında çalışacaq mütəxəssislər hazırlayır.

A.Şirinov bildirib ki, Azərbaycan İlahiyyat İnstitutu xarici ölkələrin müvafiq ali təhsil muəssisələri ilə əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması məqsədilə səfərlər təşkil edir.

Qeyd edək ki, Azərbaycanın Malayziyadakı Səfirliyinin və “İdrak” İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən işgüzar səfərdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, AİI rektoru, dosent Aqil Şirinov, ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov və İnstitutun xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov iştirak ediblər.

* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşlarından




ibarət nümayəndə heyətinin Malayziyaya işgüzar səfəri davam edib. Nümayəndə heyəti rəsmi səfər çərçivəsində 25 may 2023-cü il tarixində Azərbaycanın Malayziyadakı Səfirliyini, Malayziya Milli Universitetini (The National University of Malaysia, Malay: Universiti Kebangsaan Malaysia) ziyarət edib.

Malayziya Milli Universitetinin prorektoru, professor Van Kamal Bin Mujani təmsilçisi olduğu qurum haqqında məlumat verib. Həmçinin iki ali təhsil müəssisəsi arasında nəzərdə tutulan layihələr barədə söhbət açıb.

Görüşdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov Azərbaycanda mövcud olan dini durum haqqında məlumat verib. Sədr müavini ölkəmizdə tolerantlıq mühitinin dünyaya nümunə olduğunu, respublikamızda istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin mövcud olmadığını nəzərə çatdırıb. Dövlət-din münasibətlərindən bəhs edən G.İsmayılov Prezident İlham Əliyevin Sərəncamı ilə ölkəmizdə 2016-cı ilin “Multikulturalizm İli”, 2017-ci ilin isə “İslam Həmrəyliyi İli” elan edilməsinə diqqət çəkib.

AİI rektoru, dosent Aqil Şirinov ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. İlahiyyat İnstitutunda hər üç təhsil pilləsi üzrə qəbulun həyata keçirildiyini qeyd edən rektor bildirib ki, ali təhsil müəssisəsinə qəbul tamamilə ödənişsizdir.

Müəssisənin akademik heyəti barədə məlumat verən A.Şirinov vurğulayıb ki, AİI-də tədris aparan müəllimlər ərəb və ingilis dillərində sərbəst mühazirələr deyə bilən peşəkar kadrlardır.

Görüşdə, həmçinin ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması barədə müzakirələr aparılıb.

(Ardı 36-cı səhifədə)

# Nümayəndə heyətinin Malayziya səfəri

(Əvvəli 34-35-ci səhifələrdə)

* * *







Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşlarından ibarət nümayəndə heyətinin Malayziyaya işgüzar səfəri davam edir. Nümayəndə heyəti rəsmi səfər çərçivəsində 26 may 2023-cü il tarixində Malayziya Beynəlxalq İslam Universitetini (International Islamic University Malaysia) ziyarət edib.

Malayziya Beynəlxalq İslam Universitetinin rektoru, professor Dzulkifli Abdul Razakla görüşdə dövlət-din münasibətləri, islamofobiya ilə mübarizə, ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması barədə müzakirələr aparılıb.

Rektor Dzulkifli Abdul Razak daha sonra təmsil etdiyi qurum haqqında məlumat verib. O, iki ali təhsil müəssisəsi arasında baş tuta biləcək layihələr barədə söhbət açıb.

Görüşdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov təmsil etdiyi qurumun fəaliyyəti, Azərbaycanda mövcud dini durum, tolerant və multikultural mühit barədə məlumat verib.

Tarixboyu Azərbaycan ərazisində etnik və dini icmalar arasında möhkəm dostluq və qardaşlıq əlaqələrinin mövcud olduğunu qeyd edən sədr müavini daha sonra bildirib ki, ölkəmizdə milli, irqi, dini ayrı-seçkiliyə yol verilmədən müxtəlif dinlərə mənsub insanlar sülh və əmin-amanlıq şəraitində fəaliyyət göstərirlər. Ölkəmizin islamofobiya ilə mübarizə apardığını vurğulayan G.İsmayılov bu ilin mart ayında Azərbaycanda keçirilən "İslamofobiya irqçiliyin və ayrı-seçkiliyin spesifik forması kimi: yeni qlobal və transmilli çağırışlar" mövzusunda beynəlxalq konfransa diqqət çəkib.

Aİİ rektoru, dosent Aqil Şirinov təmsil etdiyi ali təhsil müəssisəsi haqqında geniş məlumat verib. A.Şirinov rəhbəri olduğu İnstitutda iki istiqamət – "Dinşünaslıq" və "İslamşünaslıq" ixtisasları üzrə tədris həyata keçirildiyini diqqətə çatdırıb. Bildirib ki, "Dinşünaslıq" ixtisasında İslamla yanaşı, digər böyük dinlər haqqında, xüsusilə Yəhudilik və Xristianlıq barədə deskriptiv bilgiləri ehtiva edən fənlər də tədris olunur. İslamşünaslıq istiqamətində isə daha çox İslamı müxtəlif aspektlərdən öyrənən fənlər tədris olunur və bu ixtisası bitirənlər din xadimi kimi fəaliyyət göstərəcəklər.

Aİİ rektoru Aqil Şirinov iki ali təhsil müəssisəsi arasında imzalanan Niyyət Protokoluna əsasən birgə layihələrin həyata keçirilməsində maraqlı olduğunu vurğulayıb.

Nümayəndə heyəti daha sonra Malayziya Beynəlxalq İslam Universitetinin 40 illik fəaliyyətinə həsr olunmuş "dəyirmi masa"da iştirak edib. Həmçinin bu müəssisənin İslami nəqli (dini) biliklər və humanitar elmlər fakültəsini, ali təhsil ocağının kitabxanasını ziyarət edib.

Qeyd edək ki, Azərbaycanın Malayziyadakı Səfirliyinin və "İdrak" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən işgüzar səfərdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Aİİ rektoru, dosent Aqil Şirinov, ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov və İnstitutun xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov iştirak ediblər.

# Sertifikatlar təqdim olunub




Azərbaycan İlahiyyat İnstitutu İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova 24 may 2023-cü il tarixində Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (TKTA) keyfiyyət təminatının qiymətləndirilməsi üzrə ekspert sertifikatları ilə təltif olunub.

TKTA-nın təşkilatçılığı ilə Bakıda "Ali təhsildə keyfiyyət təminatı və keyfiyyətin gücləndirilməsi" mövzusunda beynəlxalq forum keçirilib. Forumda Avropa Ali Təhsil Məkanında Keyfiyyətin Təminatı üzrə Assosiasiya başda olmaqla, təhsildə keyfiyyət təminatı sahəsində mühüm beynəlxalq təşkilatların ekspertləri iştirak ediblər. Forum çərçivəsində Keyfiyyət Təminatının Qiymətləndirilməsi üzrə TKTA-nın təlimlərini uğurla başa vurmuş ekspertlərə sertifikatlar təqdim olunub.

"Daxili keyfiyyət təminatı mexanizmləri", "Xarici keyfiyyət təminatı" və "ATM-lərin akkreditasiyası üzrə qiymətləndirmə meyarları"na dair üç modulu da uğurla başa vuran dosent E.Əzizovaya modullar üzrə sertifikatlar təqdim olunub.

## Müstəqillik Günü tədbiri

*Azərbaycan İlahiyyat İnstitutunda 28 May - Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilib.*

*Aİİ İlahiyyat fakültəsi İslamşünaslıq kafedrasının müəllimi, tarix üzrə fəlsəfə doktoru Rəşad Mustafa çıxış edərək, dövlət müstəqilliyimizin əhəmiyyətindən, Azərbaycanın siyasi, iqtisadi, mədəni sahələrdə qazandığı nailiyyətlərdən bəhs edib.*





# Yuta ştatının nümayəndə heyəti AİI-ni ziyarət edib

Ölkəmizdə səfərdə olan ABŞ-nin Yuta ştatından nümayəndə heyəti 25 may 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunu ziyarət edib. Nümayəndə heyətinə Sonuncu Gün Müqəddəslərinin İsa Məsih kilsəsinin rəhbəri Devid Bednar başçılıq edib.

AİI-nin Elm və innovasiyalar üzrə prorektoru, dosent Mirniyaz Mürsəlov qonaqları ali təhsil müəssisəsində görməkdən məmnun olduğunu bildirib. M.Mürsəlov İnstitutun fəaliyyəti, ölkədaxili və xarici əlaqələri, ölkəmizin multikultural və tolerantlıq ənənələrinin təbliğindəki rolu, gələcək hədəfləri barədə ətraflı məlumat verib. Prorektor ali təhsil müəssisəsində mövcud ixtisaslar və təhsil pillələri haqqında söhbət açıb. Qeyd edib ki, AİI-də bakalavirat, magistratura və doktorantura pillələri üzrə tədris aparılır. M.Mürsəlov, həmçinin tədris zamanı bütün dinlər haqqında tələbələrə geniş məlumatların verildiyini də diqqətə çatdırıb.

Sonuncu Gün Müqəddəslərinin İsa Məsih Kilsəsinin rəhbəri Devid Bednar ölkəmizlə tanışlıqdan, Azərbaycanda gördükləri multikultural, tolerant mühitdən nümayəndə heyətinin məmnun olduğunu vurğulayıb. Bildirib ki, Azərbaycan dünyada çox az ölkələrdən biridir ki, burada bütün dinlərə mənsub insanlar azad, sərbəst şəkildə rahat yaşayırlar və onlara münasibətdə heç bir ayrı-seçkiliyə yol verilmir. Multikulturalizmin Azərbaycan modeli dünyada təbliğ edilməli, burada yaşayan etnik və dini icmalar arasında dostluq və qardaşlıq bütün dünyaya nümayiş olunmalıdır.

Görüş qarışılıqlı müzakirələrlə davam edib.







# Nümayəndə heyətinin Bruney səfəri

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin və Azərbaycan İlahiyyat İnstitutunun əməkdaşlarından ibarət nümayəndə heyəti 30 may 2023-cü il tarixindən Bruneydə işgüzar səfərdə olub.

Səfər çərçivəsində Bruney Darussalam Universitetinin rektoru, dr. Hazri ibn Hacı Kifle və Sultan Şərif Əli adına İslam Universitetinin prorektoru, dosent Siti Sara bint Hacı Ahmad ilə görüşlər keçirilib.

Görüşlərdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov dövlətdin münasibətləri, mövcud dini durum haqqında məlumat verib, həmçinin ölkəmizdə islamafobiya ilə mübarizə aparıldığını, hər il bu istiqamətdə beynəlxalq tədbirlərin keçirildiyini qeyd edib. Sədr müavini respublikamızda tolerantlıq mühitinin dünyaya nümunə olduğunu, istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin olmadığını vurğulayıb.

Aİİ rektoru, dosent Aqil Şirinov ali təhsil müəssisəsinin yaranma səbəbi, fəaliyyəti, gələcək planları barədə geniş məlumat verib. Rektor ixtisaslar və təhsil pillələri haqqında bəhs edərkən bildirib ki, ali təhsil müəssisəsinə qəbul tamamilə ödənişsizdir.

Görüşlərdə ali təhsil müəssisələri arasında əlaqələrin gücləndirilməsi, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsi, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsi, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılması barədə müzakirələr aparılıb.

Qeyd edək ki, Azərbaycanın Malayziyadakı Səfirliyinin və "İdrak" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən işgüzar səfərdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, Aİİ rektoru, dosent Aqil Şirinov, ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov və İnstitutun xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov iştirak ediblər.

(Ardı 40-cı səhifədə)









# Nümayəndə heyətinin Bruney səfəri

(Əvvəli 39-cu səhifədə)



* * *

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan İlahiyyat İnstitutu əməkdaşlarından ibarət nümayəndə heyətinin Bruneyə işgüzar səfəri sona çatıb.

Səfər çərçivəsində 1 iyun 2023-cü il tarixində Bruney dini işlər naziri Hacı Badaruddin ibn Pengarah Hacı Osman və Bruneyin Ali Müftisi Abdul Aziz ibn Juned ilə görüşlər keçirilib.



Görüşlərdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov ölkəmizdə dövlət-din münasibətlərindən geniş bəhs edib. Təmsil etdiyi qurum haqqında məlumat verən sədr müavini bildirib ki, Komitə dini fəaliyyət sahəsində dövlət siyasətini həyata keçirən orqandır.

Ölkəmizdə bütün dinlərin nümayəndələrinin sülh şəraitində yaşadıqlarını, istər dini, istərsə də milli və irqi ayrı-seçkiliyin olmadığını qeyd edən G.İsmayılov daha sonra bildirib ki, Azərbaycandakı mövcud tolerant və multikultural mühit dünyaya nümunədir.

G.İsmayılov, həmçinin islamofobiya ilə mübarizə üsullarından bəhs edərək vurğulayıb ki, Azərbaycan dövləti bu istiqamətdə müxtəlif tədbirlər həyata keçirir, ölkəmiz İslam mədəniyyətinin xaricdə təbliğinə böyük önəm verir.



AİI rektoru, dosent Aqil Şirinov ali təhsil müəssisəsinin fəaliyyəti, mövcud təhsil pillələri, ixtisaslar, təqaüd proqramları, ödənişsiz təhsil imkanları, İnstitutun beynəlxalq əlaqələri, xarici universitetlərlə bağlanmış müqavilələr haqqında geniş məlumat verib.

Görüşlərdə islamofobiya ilə mübarizə yolları, din təhsili sahəsində ikitərəfli əməkdaşlıq əlaqələrinin yaradılması, birgə layihələrin həyata keçirilməsi barədə müzakirələr aparılıb.



Qeyd edək ki, Azərbaycanın Malayziyadakı Səfirliyinin və "İdrak" İctimai Birliyinin təşkilatçılığı ilə keçirilən işgüzar səfərdə DQİDK-nın sədr müavini Gündüz İsmayılov, AİI rektoru, dosent Aqil Şirinov, ali təhsil müəssisəsinin rektor köməkçisi Emin Orucov və İnstitutun xarici əlaqələr üzrə baş mütəxəssisi Şahin Ələsgərov iştirak ediblər.

# Heydər Əliyevin 100 illiyinə həsr olunmuş silsilə tədbirlər







Azərbaycan İlahiyyat İnstitutunda ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr edilmiş silsilə tədbirlər çərçivəsində 1 iyun 2023-cü il tarixində "Heydər Əliyevin Azərbaycanda İslam maddi-mənəvi mirasının bərpası və qorunmasındakı rolu" mövzusunda "dəyirmi masa" keçirilib.

Tədbirin açılışında Aİİ İlahiyyat fakültəsinin dekanı, dosent Elnurə Əzizova xalqların kimliyini formalaşdıran vacib elementlərdən biri kimi, mədəniyyətin əhəmiyyətindən danışıb. O, Azərbaycan xalqının kimliyinin təşəkkülündəki İslam amilinin vacibliyinə toxunub. E.Əzizova həm Çar, həm də Sovet hakimiyyəti dövründə təzyiq və təqiblərə məruz qalmış Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin müstəqillik dövründəki dirçəlişində Heydər Əliyevin rolundan bəhs edib.

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, i.f.d. Mehman İsmayılov dil, din və adət-ənənələr kimi mədəniyyətin vacib elementlərinin qorunması və inkişaf etdirilməsi istiqamətində Heydər Əliyevin gördüyü vacib işlərdən danışıb. Ulu Öndər təkcə müstəqillik dövründə deyil, Sovet hakimiyyəti zamanında da bu istiqamətdə mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

M.İsmayılov qeyd edib ki, Heydər Əliyev hakimiyyətinin ilk illərində ölkədə mövcud olan iqtisadi-siyasi çətinliklərə baxmayaraq, onun 1994-cü ildə imzaladığı Sərəncam ilə Azərbaycan İslam memarlığında xüsusi əhəmiyyət kəsb edən Bibiheybət məscidi əsaslı bərpa olunub.

İcraçı direktor daha sonra Ulu Öndərin 1998-ci ildə imzaladığı Sərəncamla Bakıda "İslam sivilizasiyası Qafqazda" mövzusunda keçirilən beynəlxalq simpozium haqqında və İslam maddi-mənəvi mirasının qorunması istiqamətindəki digər fəaliyyətlərindən də bəhs edib.

Digər məruzəçi – AMEA Z.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Din və ictimai fikir şöbəsinin müdiri, f.f.d. Elnur Mustafayev Heydər Əliyevin rəhbər olduğu dövrlərdə onun Azərbaycanda İslam mədəni irsinin qorunması və dirçəldilməsi istiqamətində gördüyü işlərdən danışıb. İşğaldan azad olunmuş torpaqlardakı İslam memarlıq abidələrinin bərpası istiqamətində həmin siyasətin hazırda Prezident cənab İlham Əliyev tərəfindən həyata keçirildiyini vurğulayıb.

Tədbir iştirakçıların suallarının cavablandırılması ilə davam edib.

# “İlahiyyat” jurnalının xüsusi buraxılışı ulu öndər Heydər Əliyevə həsr olunub

Azərbaycan İlahiyyat İnstitutu “İlahiyyat” elmi-publisistik jurnalının növbəti – VIII xüsusi buraxılışı işıq üzü görüb.

Jurnalın budəfəki sayı ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunub.

On üç rubrikadan ibarət olan xüsusi buraxılışda öz sahəsinin peşəkar mütəxəssisi olan elm adamlarının, dini konfessiya nümayəndələrinin, həmçinin AİI-nin tələbə və məzunlarının yazıları yer alıb.

Jurnalın budəfəki sayı “Rəsmi guşə” rubrikası ilə başlayır. Rubrikada Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında Prezident cənab İlham Əliyevin Sərəncamı yer alıb.

“Cəmiyyət və din” rubrikasında AİI rektoru Aqil Şirinovun “Ulu öndər Heydər Əliyev və multikultural dəyərlər”, millət vəkili Ceyhun Məmmədovun “Azərbaycanda dini dözümlülük ənənələrinin bərqərar olunmasında Heydər Əliyevin rolu” sərlövhəli məqalələri dərc edilib.

“Konfessiya nümayəndələri danışır” rubrikasında isə Bakı şəhəri Dağ yəhudiləri dini icmasının sədri Milix Yevdayevin “Ulu Öndərin Azərbaycan yəhudilərinə diqqət və qayğısı”, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının katibi Mefodi Əfəndiyevin “Heydər Əliyevin Azərbaycanın Pravoslav icmasına qayğısı”, Alban-Udi xristian dini icmasının rəhbəri Robert Mobilinin “Гейдар Алиев – основатель мультикультуральной модели Азербайджана, в контексте Албано-Удинской христианской общины” başlıqlı məqalələri yer alıb.




Digər rubrikalarda AİI əməkdaşlarının ulu öndər Heydər Əliyev haqqında – “Dünya liderləri Ulu Öndər haqqında (Azərbaycan və ingilis dillərində)”, “Hamı kimi doğulsa da, hamı kimi yaşamadı...”, “Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan mərhələsi”, “Heydər Əliyevin liderlik xüsusiyyətləri”, “YAP tarixi zərurətdən yarandı”, “Heydər Əliyev və Ana dili”, “Heydər Əliyev və təhsil”, “Heydər Əliyevin mənəviyyat fəlsəfəsi”, “Heydər Əliyevin dövlət siyasətində dini-mənəvi dəyərlərin əhəmiyyəti”, “Mənəvi dəyərlərin təbliği və Heydər Əliyev fenomeni”, “Heydər Əliyev və multikulturalizm”, “Heydər Əliyevin dünyəvi dövlətdə yaratdığı etiqad azadlığı”, “Dini ibadətgahların bərpası”, “Əshabi-Kəhf ziyarətgahı”, “Mir Mövsüm ağa ziyarətgahı”, “Ümummilli Liderin qadın siyasəti”, “Heydər Əliyev uşaqların dünyasında”, “Mən elə bilirdim ki...” məqalələri dərc olunub.

AİI tələbələrinin isə “Ulu Öndərin bizə qayğısı”, “Heydər Əliyevin xeyriyyəçilik missiyası”, “Heydər Baba səsləyirəm”, “İnanıram tək gerçəyə”, “Kaş rəssam olaydım” başlıqlı məqalələri və şeirləri nəşr edilib.

## Yazı müsabiqəsinin qalibləri

Azərbaycan İlahiyyat İnstitutunda 5 iyun 2023-cü il tarixində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr edilmiş “Heydər Əliyev və azərbaycançılıq” mövzusunda esse yazı müsabiqəsinin qalibləri məlum olub.

Tələbələr tərəfindən maraqla qarşılanan yarışmada qaliblər münsiflər heyətinin qiymətləndirməsi ilə müəyyən olunub. Beləliklə, müsabiqədə I yerə – Həmidə Canbulad qızı Həsənova, II yerə – Dəniz Elnur oğlu Ağabalayev, III yerə – Fikrət Murad oğlu Əhmədov layiq görülüblər.

Müsabiqənin sonunda qaliblər mükafatlandırılıb, iştirakçılara diplom və təşəkkürnamələr təqdim edilib.

Qeyd edək ki, “Heydər Əliyev və azərbaycançılıq” mövzusunda esse yazı müsabiqəsi Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin “Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında” 29 sentyabr 2022-ci il tarixli Sərəncamına uyğun olaraq təşkil edilib.



# İndoneziyanın nümayəndə heyəti AİI-də

İndoneziyanın "Nahdlatul Ulama" Qeyri-hökumət təşkilatının nümayəndə heyəti 9 iyun 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunun qonağı olub.

Görüşdə "Nahdlatul Ulama" Qeyri-hökumət Təşkilatı İdarə Heyətinin üzvləri, AİI rektoru Aqil Şirinov, Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov iştirak ediblər.

AİI rektoru Aqil Şirinov qonaqlara ali təhsil müəssisəsinin yaranması və fəaliyyəti haqqında geniş məlumat verib. İnstitutun bakalavriat, magistratura və doktorantura pillələri üzrə təhsil həyata keçirdiyini bildirən rektor qeyd edib ki, burada təhsil tamamilə ödənişsizdir.

Ali təhsil müəssisəsinin rektoru AİI haqqında bəhs edərkən vurğulayıb ki, tədris zamanı bütün dinlər haqqında tələbələrə geniş məlumatlar verilir. Rektor İnstitut müəllimlərinin öz sahələrinin peşəkar mütəxəssisləri olduqlarını nəzərə çatdırıb.



A.Şirinov ölkəmizdə mövcud olan multikultural mühitin tanıdılmasında görülən işlər barədə danışarkən, burada yaşayan bütün dinlərin nümayəndələri ilə sıx əməkdaşlıq şəraitində çalışıldığını diqqətə çatdırıb.

Təşkilatın idarə heyətinin sədr müavini Zulfa Mustofa təmsil etdiyi qurum haqqında məlumat verərək, onun 100 milyona yaxın üzvünün olduğunu, dünyanın ən böyük İslam təşkilatı hesab edildiyini bildirib.

Daha sonra "Nahdlatul Ulama" Qeyri-hökumət Təşkilatı İdarə Heyətinin üzvü dr. H. Moh. Soleh "dəyirmi masa"da İndoneziyada mövcud multikultural mühit haqqında məlumat verib.

Görüş müzakirələrlə davam edib.

Sonda qonaqlara hədiyyələr təqdim edilib.

# Milli Qurtuluş Gününə həsr olunmuş tədbir



Azərbaycan İlahiyyat İnstitutunda 14 iyun 2023-cü il tarixində 15 İyun – Milli Qurtuluş Gününə həsr olunmuş tədbir keçirilib.

Tədbirdə açılış nitqi ilə çıxış edən AİI rektoru, dosent Aqil Şirinov ümummilli lider Heydər Əliyevin hakimiyyətdə olduğu dövrdə Azərbaycan xalqı və dövləti üçün göstərdiyi xidmətlərdən bəhs edib. Milli Qurtuluş Günü tarixinin ölkəmizin inkişafının, dünya birliyinə inteqrasiyasının, beynəlxalq aləmdə layiqli yer tutmasının və qazandığımız tarixi Şanlı Zəfərimizin təməli olduğunu diqqətə çatdırıb.

Daha sonra məruzəçi, AİI İslamşünaslıq kafedrasının müəllimi, dosent Rəşad Mustafa ümummilli lider Heydər Əliyevin ictimai-siyasi fəaliyyəti dövründə hər zaman Azərbaycan xalqının maraqlarına, Azərbaycan dövlətinin inkişafına xidmət etdiyini bildirib. Həmin dövrdə Azərbaycanın düşdüyü vəziyyəti, baş verən hadisələri, faktları xronoloji ardıcıllıqla xatırlayan məruzəçi ümummilli lider Heydər Əliyevin xalqın tələbi ilə 1993-cü ildə növbəti dəfə hakimiyyətə gəlişi ilə ölkəmizin inkişaf mərhələsinə qədəm qoyduğunu diqqətə çatdırıb.

Rəşad Mustafa daha sonra vurğulayıb ki, 44 günlük Vətən müharibəsində əldə etdiyimiz möhtəşəm Zəfər 15 iyun 1993-cü ildən Azərbaycan naminə, ölkəmizin inkişafı və Azərbaycanın bütövlüyü uğrunda aparılan mübarizənin, yürüdülən siyasətin hərbi-siyasi yekunu və nəticəsidir.

# İlahiyyat İnstitutunun müəllimi kursa qatılıb



Azərbaycan İlahiyyat İnstitutu Dinşünaslıq kafedrasının müəllimi, f.f.d. Aliyə Mürsəlova 16 iyun 2023-cü il tarixində ixtisasartırma proqramında iştirak edib.

Kurs Rusiya Dövlət Humanitar Universiteti nəzdində fəaliyyət göstərən Dinlərin Öyrənilməsi Mərkəzi və Əlavə Təhsil İnstitutunda təşkil olunub.

"Cənub-Şərqi Asiyanın dini dünyaları: ənənələr və təcrübələr" mövzusunda onlayn formatda keçirilən ixtisasartırma proqramı çərçivəsində Aliyə Mürsəlova 144 saatlıq təlim kursunu müvəffəqiyyətlə başa vurub.

## İLKE Vəqfinin nümayəndələri AİI-də



Türkiyənin İLKE Vəqfinin nümayəndələri 16 iyun 2023-cü il tarixində Azərbaycan İlahiyyat İnstitutunda olublar.

AİI rektoru, dosent Aqil Şirinovla görüş zamanı ziyarətçilərə ali təhsil müəssisəsi haqqında ətraflı məlumat verilib, ikitərəfli əməkdaşlıq əlaqələrinin inkişafına dair bir sıra məsələlərə toxunulub.

Aqil Şirinov ixtisaslar, İnstitutda tədris olunan fənlər haqqında bəhs edib. Bildirib ki, AİI xarici ölkələrin müvafiq ali təhsil müəssisələri ilə əlaqələrinin gücləndirilməsində, ikitərəfli əməkdaşlıq çərçivəsində birgə layihələrin həyata keçirilməsində, elm və təhsil sahəsində beynəlxalq təcrübənin öyrənilməsində, müəllim və tələbə mübadiləsi proqramlarının reallaşdırılmasında maraqlıdır.

İLKE Vəqfi İdarə Heyətinin rəhbəri, professor Lütfi Sunar təmsil etdikləri qurum haqqında məlumat verib. Vəqfin müvafiq strukturları ilə AİI arasında din təhsili, İslam tarixi, mədəniyyəti və incəsənəti ilə əlaqədar mövzularda əlaqələr yaratmağın mümkün olduğunu diqqətə çatdırıb.

Görüş tərəflər arasında mümkün ola biləcək proqramların müzakirəsi ilə davam edib.





# “Din araşdırmaları” jurnalının rəsmi internet saytının təqdimatı

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində fəaliyyət göstərən Azərbaycan İlahiyyat İnstitutunun təsisçisi olduğu “Din araşdırmaları” jurnalının 19 iyun 2023-cü il tarixində rəsmi internet saytının təqdimat mərasimi baş tutub.

Azərbaycan İlahiyyat İnstitutunun rektoru, dosent Aqil Şirinov açılış nitqi ilə çıxış edərək, “Din araşdırmaları” jurnalının rəsmi internet saytının müasir standartlara uyğun hazırlandığını diqqətə çatdırıb. Bildirib ki, alimlər bundan sonra məqalələrini rəsmi internet saytı vasitəsilə göndərəcək və araşdırmalarının statuslarını saytda yaratdıqları profil vasitəsilə izləyə biləcəklər.

Aİİ rəhbəri daha sonra vurğulayıb ki, azərbaycanlı alimlərin elmi məqalələrinin dünyaya tanıdılması üçün xüsusilə humanitar sahədə çalışan mütəxəssislərin “Scopus” və “Web of sciences” kimi nüfuzlu beynəlxalq bazalara daxil olan jurnallarda məqalələrinin çap olunması vacibdir. Rektor qeyd edib ki, məqsədimiz dərgimizin beynəlxalq indeksli jurnallar siyahısına daxil edilməsinə nail olmaqdır.

Ankara Yıldırım Bəyazid Universiteti İslam elmləri fakültəsinin müəllimi Abdullah Demir “Din araşdırmaları” jurnalının rəsmi internet saytını təqdim edib və texniki qaydaları haqqında məlumat verib. O, elmi jurnalların nəşr standartları, texniki özəllikləri, məqaləgöndərmə sistemi və s. barədə geniş bəhs edib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi Dini təhsil şöbəsinin müdiri Elnarə Kərimova bildirib ki, Aİİ-nin fəaliyyətə başlamasından qısa müddət keçsə də, müəssisə bir çox uğurlu layihəyə imza atıb. Qeyd edib ki, rəsmi internet saytının, internet televiziyasının fəaliyyətə başlaması, məzunlarının işlə təmin olunmaları bu istiqamətdən olan fəaliyyətlərdəndir.

İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi Tərəfdaşlarla iş şöbəsinin müdiri Orxan İsmayılov jurnalın rəsmi internet saytının fəaliyyətə başlaması münasibətilə elm adamlarını təbrik edib. Jurnalın texniki hissəsinin yüksək standartlara uyğun olduğunu diqqətə çatdırıb.

Azərbayan İlahiyyat İnstitutunun Elm və innovasiyalar üzrə prorektoru, “Din araşdırmaları” jurnalının baş redaktoru Mirniyaz Mürsəlov bildirib ki, AR Nazirlər Kabineti tərəfindən 16 mart 2022-ci il tarixində “Elmi nəşrlərlə bağlı beynəlxalq reytinq göstəricilərinin yaxşılaşdırılması ilə əlaqədar Yol Xəritəsi” təsdiq olunub. M.Mürsəlov qeyd edib ki, Aİİ sözügedən “Yol Xəritəsi”nin icrası ilə bağlı bu istiqamətdə müəyyən işlər görür. Ali təhsil müəssisəsinin “Din araşdırmaları” jurnalının rəsmi internet saytı müasir standartlara, beynəlxalq jurnallarda məqalələrin yazılması və yayımlanması tələblərinə uyğun olaraq hazırlanıb.











# Məzun Günü

Azərbaycan İlahiyyat İnstitutunda 25 iyun 2023-cü il tarixdə Məzun Günü keçirilib.

Ərazi bütövlüyümüzün qorunması və bərpası uğrunda şəhid olanların ruhu bir dəqiqəlik sükutla yad edilib. Sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Aİİ-nin I kurs tələbəsi, 44 günlük Vətən müharibəsi qazisi Turqut Alışov tərəfindən Quran tilavəti təqdim edilib. Ali təhsil müəssisəsinin bir qrup tələbəsinin ifasında ilahi səsləndirilib.

Açılış nitqi ilə çıxış edən Aİİ rektoru, dosent Aqil Şirinov məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. İnstitutun, artıq beş ildir fəaliyyət göstərdiyini diqqətə çatdıran rektor vurğulayıb ki, ali təhsil müəssisəsi məzunlarını ikinci dəfədir yola salır.

İnstitutun dövlət qayğısı ilə tam əhatə olunduğunu diqqətə çatdıran rektor vurğulayıb ki, müəssisənin əsas məqsədi yüksək intellektə, geniş dünyagörüşünə malik, sağlamdüşüncəli, dövlətçiliyə bağlı, Vətənini sevən mütəxəssislər hazırlamaqdır.

A.Şirinov daha sonra bildirib ki, tələbələr ölkəmizin inkişafı, daha da çiçəklənməsi naminə üzərlərinə düşən vəzifələrin öhdəsindən layiqincə gəlməli, milli-mənəvi dəyərlərimizi müasir dünyanın reallıqlarına uyğun şəkildə və birləşdirici ünsür olaraq cəmiyyətə təbliğ etməlidirlər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2018-ci ildə imzaladığı Sərəncamla təsis edilən Azərbaycan İlahiyyat İnstitutunun yaradılmasında məqsəd Azərbaycan xalqının tarixi ənənələrinə söykənən və dövlət siyasətinin məntiqi nəticəsi olan yüksək dini-mənəvi mühitin qorunub-saxlanılmasını və inkişaf etdirilməsini, dini fəaliyyətin təşkili sahəsində yüksəkixtisaslı kadrların hazırlanmasını təmin etməkdir.

DQİDK sədri İnstitutun yaradılmasının həm ölkəmiz, həm region, həm də müsəlman dünyası üçün böyük əhəmiyyət daşıdığını vurğulayıb, Aİİ-nin, artıq Qafqaz bölgəsi üzrə dini təhsil sahəsində xüsusi yeri olduğunu diqqətə çatdırıb. İnstitutun beş ildir fəaliyyət göstərdiyini bildirən M.Qurbanlı qeyd edib ki, ali təhsil müəssisəsi bu müddət ərzində dini kadr sahəsində güclü kadr hazırlığı həyata keçirməyə nail olub.

İlahiyyat İnstitutunun professor-müəllim heyətini və tələbələri Məzun Günü münasibətilə təbrik edən Komitə sədri məzunlara bundan sonrakı fəaliyyətlərində uğurlar arzulayıb. On-











ların cəmiyyətimizə, dövlətimizə layiq kadr olacaqlarına, xalqımızın milli-mənəvi dəyərlərinin daha geniş təbliğ olunmasına öz töhfələrini verəcəklərinə əmin olduğunu bildirib.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, f.f.d. Fuad Nurullayev Şeyxülislam Allahşükür Paşazadənin təbriklərini tədbir iştirakçılarına çatdırıb. F.Nurullayev məzunlara ilahiyyatçı olaraq ölkəsini mükəmməl təmsiletmə məsuliyyətini anlamağı, bu müqəddəs peşənin öhdəsindən layiqincə gəlməyi arzulayıb. O, bu məsuliyyətli vəzifədə məzunlara uğurlar diləyib.

DQİDK-nın sədr müavini Səyavuş Heydərov çıxışında qeyd edib ki, dünyada bir çox münaqişələr dini zəmində törədilir. Bu kimi mənfi hallardan cəmiyyətimizi, dövlətimizi qorumaq isə əsas vəzifəmizdir. S.Heydərov dini mövqedə ölkəmizə qarşı edilən təhdidlərlə mübarizədə AİI məzunlarının üzərinə böyük məsuliyyət düşdüyünü vurğulayıb: "Sizin ümdə vəzifəniz dinimizi olduğu kimi cəmiyyətimizə çatdırmaqla yanaşı, milli-mənəvi dəyərlərimizə sahib çıxmaqdır".

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru Mehman İsmayılov AİI məzunlarının cəmiyyətdə milli-mənəvi dəyərlərin aşılanması istiqamətində xüsusi rol oynayacaqlarını bildirib. O, məzunlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi İnformasiya təminatı və sənədlərlə iş şöbəsinin müdiri Yadigar Məmmədli məzunları təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb. O qeyd edib ki, AİI məzunlarının ölkəmizin hər bir nöqtəsində dövlət-din münasibətlərinin tənzimlənməsi istiqamətində mühüm işlər görəcəklərinə, multikultural və tolerant mühitin qorunmasında əllərindən gələni əsirgəməyəcəklərinə inam böyükdür.

AİI-nin məzunları adından çıxış edən Günel Aslanova ali təhsil müəssisəsinin kollektivinə təşəkkürünü bildirib. Bu ali təhsil müəssisəsindən məzun olmağın qürurunu yaşayan G.Aslanova bildirib ki, dini elmi əsaslarla təbliğ etmək, cəhalətə, xurafata qarşı mübarizə aparmaq üçün ali savadlı olmaq uşaqlıq arzusu idi və bu istəyinə yetişib. O qeyd edib ki, əsas məqsəd İslamı və digər dinləri daha mükəmməl öyrənmək və insanlara doğru şəkildə çatdırmaqdır.

Daha sonra Azərbaycan İlahiyyat İnstitutu məzunlarının iştirakı ilə hazırlanmış videoçarx nümayiş etdirilib.

Azərbaycan İlahiyyat İnstitutunun məzunları Tələbə Andı səsləndiriblər.











Azərbaycan İlahiyyat İnstitutu
Bülleten
№ 7
yanvar-iyun
2023






















**Təsisçi:**
Azərbaycan
İlahiyyat İnstitutu

**Baş redaktor:**
Aqil Şirinov

**Redaksiya şurası:**
Mirniyaz Mürsəlov
Ayşən Aslanova
Elnarə Ağaoğlu
Rəna Həsrətova

**Məsul redaktor:**
Elnarə Ağaoğlu

**Texniki redaktor:**
Hilal Ağamoğlanov

**Foto:**
Mirehtimad Nurizadə

**Ünvan:**
Məhəmməd Naxçıvani, 29

**Əlaqə nömrəsi:**
(+994) 12 436 77 66

Tiraj: 400

**Elit Poliqraf MMC-də**
çap olunub

ait.edu.az
bulleten@ait.edu.az
ilahiyyatinstitutu
ilahiyyatinstitutu